# Uşaq bağçaları ilə bağlı vahid məlumat sistemi yaradılacaq



**Bağçalarda diqqət göstərdiyimiz əsas məsələ uşaqların davamiyyətidir.**

Bunu təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, bu göstəricilər ümumilikdə qənaətbəxşdir.

Nazir vurğulayıb ki, yenə də problemli müəssisələr var: "Eyni zamanda, işçilərin işə davamiyyəti də gündəmdədir. Hazırda uşaq bağçaları ilə bağlı vahid məlumat sistemi yaratmaq plandadır. Çünki belə sistem olmadıqda uşaq və müəllim sayı çətinləşir. Düşünürəm ki, yaxın 2-3 ay ərzində proses bitəcək. Bundan sonra təhsil sistemində olduğu kimi bağçalarda da uşaq qəbulu və işə qəbul şəffaflaşacaq və asanlaşacaq".



## Xəzərdə zəlzələ baş verib

**Xəzər dənizində zəlzələ baş verib.**

Seysmoloji Xidmət Mərkəzindən verilən xəbərə görə, zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən yerli vaxtla saat 18:37-də Qala stansiyasından 165 km cənub-şərqdə, Xəzər dənizində zəlzələ qeydə alınıb.

*Zəlzələnin maqnitudası 3,6, dərinliyi isə 25 km olub.*


❒ № 77 (5599), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 5 may 2022-ci il (cümə axşamı)




# Nazir müjdə verdi

## Bu il məktəblərdə "Son zəng" şənliyinin keçirilməsi gözlənilir

**Bu il "Son zəng" ənənəvi qaydada keçiriləcək.**

Bunu təhsil naziri Emin Əmrullayev şagirdlər arasında keçirilmiş "Ən yaxşı təqdimat" müsabiqəsinin qaliblərinin təltif olunması mərasimində jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, pandemiya hələ də davam edir: "Mövcud qaydalar əsasında bu il məktəblərdə "Son zəng" şənliyinin keçirilməsi gözlənilir" ,- deyə o əlavə edib.



## Qarabağda işlər planlı aparılacaq

### Prezident: "Azad edilmiş bütün torpaqlarda bir dənə də qanunsuz tikili olmamalıdır"

**"Zəngilan şəhərinin Baş planının ilkin versiyası mənə təqdim edilib. Prinsip etibarilə bu, məqbuldur. Amma, əlbəttə ki, göstəriş vermişəm ki, daha geniş diskussiyalar, müzakirələr aparılsın. Siz də təbii olaraq bu işlərə dərhal qoşulun".**

Bunu Prezident İlham Əliyev mayın 4-də Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edən zaman bildirib. Dövlət başçısı bildirib ki, Zəngilan şəhərinin Baş planı bütün müasir memarlıq normalarını ehtiva edəcək...

(səh.2)

## Aİ ilə Azərbaycan arasında yeni saziş üzərində iş davam edir



**Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında yeni saziş üzərində iş davam edir.**

Trend-in məlumatına görə, bunu Aİ-nin Azərbaycandakı səfiri Peter Mixalko 9 may Avropa Gününə həsr olunmuş mətbuat konfransında deyib.

"Biz əminik ki, bu saziş ikitərəfli əlaqələri yeni səviyyəyə çıxaracaq", - P.Mixalko deyib.

O qeyd edib ki, Aİ ilə Azərbaycan arasında əlaqələr möhkəmlənməkdə davam edir.

# Azərbaycan dövləti vətəndaşına sahib çıxdı

## "Ukraynada valideynləri həlak olan 3 azərbaycanlı uşaq Vətənə gətirilib"




**Ukraynanın Xarkov şəhərində həlak olmuş Azərbaycan vətəndaşı Mahmudov Emin Zabit oğlu və onun həyat yoldaşı Ukrayna vətəndaşı Mahmudova Lyudmilanın yetkinlik yaşına çatmayan 3 övladı - 26.04.2007-ci il təvəllüdlü Mahmudova Renata Eminovna, 04.11.2010-cu il təvəllüdlü Mahmudov David Eminoviç və 10.12.2017-ci il təvəllüdlü Mahmudova Dayana Eminovna Azərbaycana təxliyə ediliblər.**

Bu barədə "Şərq"ə Azərbaycan Xarici İşlər Nazirliyinə istinadən xəbər verir.

Azərbaycan vətəndaşı olan uşaqlar valideynləri həlak olduqdan sonra tanışları tərəfindən Rusiya Federasiyası ərazisinə keçiriliblər.

Uşaqların Azərbaycana repatriasiya edilməsi üçün ölkəmizin dövlət qurumları tərəfindən əlaqələndirilmiş qaydada bir sıra zəruri tədbirlər, o cümlədən uşaqların vətəndaşlıq mənsubiyyətinin müəyyən edilməsi və qəyyumun təyin edilməsi həyata keçirilib.

(səh.2)

# Paşinyan devrilsə sülh danışıqları risk altına düşəcək

## Erməni müxalifəti baş naziri "öz silahı" ilə vurmağa çalışır



**Ermənistan müxalifətinin bir neçə gündür paytaxt İrəvanda başlatdığı etiraz aksiyaları daha da şiddətlənib.**

Polislə etirazçılar arasında paytaxtın mərkəzi küçələrində iğtişaşların baş verdiyi, küçə qarşıdurmalarının yaşandığı deyilir.

Parlamentin vitse-spikeri, "Daşnaksütyun" partiyasının idarə heyətinin nümayəndəsi İşxan Saqatelyan deyib ki, birləşmiş müxalifət İrəvanın mərkəzindəki "Fransa meydanı"nda çadırlar quraraq, gecələməyə hazırlaşır və bazar ertəsi genişmiqyaslı vətəndaş itaətsizliyi aksiyalarına start veriləcək".

(səh.3)



## Ötən ay axtarışda olan 187 nəfər sərhəddə tutulub

**Ötən ay ərzində cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 187 nəfər aşkarlanaraq aidiyyəti orqanlara təhvil verilib.**

Bu barədə Dövlət Sərhəd Xidmətinin aprel ayı ərzində dövlət sərhədinin mühafizəsi, qaçaqmalçılıq, qeyri-leqal miqrasiya, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı məlumatında bildirilib.

Məlumata görə, həmin müddətdə ölkədən çıxışı qadağan olan 347 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olan 23 nəfərin Azərbaycan Respublikasına daxil olmasının qarşısı alınıb.

## Vəfat edən olmayıb

### Daha 3 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 3 yeni yoluxma faktı qeydə alınıb, 14 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 792 588 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 782 818 nəfər müalicə olunaraq sağalıb, 9 709 nəfər vəfat edib, aktiv xəstə sayı 61 nəfərdir.

## Büdcə vəsaiti ilə alınmış dərmanlarla bağlı yoxlama aparılır



**"Səhiyyə Nazirliyində xroniki böyrək çatışmazlığı ilə bağlı dövlət proqramının icrasının nəticəliyi ilə bağlı səmərəlilik auditi ilə yanaşı, İnnovasiya və Təchizat Mərkəzində büdcə vəsaiti hesabına alınmış dərman və avadanlıqların istifadə vəziyyətinə dair uyğunluq auditinin aparılmasına da başlamışıq".**

Bunu APA-ya müsahibəsində Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib.

Vüqar Gülməmmədov deyib ki, əvvəlki illərdə də biz bu sahədə nəzarət tədbiri aparmışıq: "Auditin nəticəsi ilə bağlı müəyyən təkliflərimiz var. Onların reallaşması üçün yeni rəhbərliklə müzakirə edəcəyik".



## "Qazi" adından istifadə edənlərə ən ağır cəza verilməlidir

### Çingiz Qənizadə: "Belə adamlara aramızda və cəmiyyətdə yer olmamalıdır"

(səh.3)



## Bu il ölkəmizə səfər edən turistlərin sayı 50 faiz artacaq

### Təkcə mart ayında Türkiyədən Azərbaycana 24 mindən çox turist gəlib

(səh.5)

# Ortaq maraqlarımız var

## İsrail Azərbaycanın ən yaxın dostudur



### Təl-Əvivlə rəsmi Bakı arasında siyasi-iqtisadi sahədə strateji əməkdaşlıq mövcuddur

İsmayıl Qocayev

**Prezident İlham Əliyev İsrail Prezidenti İshaq Hersoqa təbrik məktubu ünvanlayıb. İsrail dövlətinin milli bayramı - Müstəqillik Günü münasibəti ilə cənab İshaq Hersoqu təbrik edən dövlət başçısı İlham Əliyev vurğulayıb ki, uğurla inkişaf edən dövlətlərarası münasibətlərin təməlində tarixən dostluq, qarşılıqlı anlaşma və hörmət şəraitində yaşayan xalqlarımızın iradəsi dayanır.**

Ölkə rəhbəri bəyan edib ki, Azərbaycan-İsrail əlaqələrinin əhatə dairəsinin genişlənməsi, bir sıra mühüm sahələrdə ölkələrimizin fəal əməkdaşlığı məmnunluq doğurur. Prezident xüsusilə qeyd edib ki, Təl-Əvivdə ölkəmizin Ticarət və Turizm nümayəndəliklərinin açılması əməkdaşlığımızın inkişafına, insanlararası təmasların artmasına töhfə verəcək: "Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və yenidənqurma işlərində İsrail şirkətlərinin iştirakını xüsusi qeyd etmək istəyirəm. Hesab edirəm ki, energetika, yüksək texnologiyalar, təhsil, hərbi-texniki və digər sahələrdə qarşılıqlı fəaliyyətimizin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar mövcuddur. Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərini genişləndirmək, əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik".

**Azərbaycan-İsrail münasibətlərinin inkişafı ilə bağlı "Şərq"ə danışan politoloq Turab Rzayev bildirib ki, Təl-Əvivlə rəsmi Bakı arasında siyasi-iqtisadi sahədə strateji əməkdaşlıq mövcuddur.** Ekspertin sözlərinə görə, iki ölkənin iqtisadi əlaqələri daha çox İsrailin enerji təhlükəsizliyi ilə bağlıdır: "Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə ixrac edilən neftin xeyli hissəsi İsrailə satılır. Azərbaycan İsraili enerji təhlükəsizliyi ilə təmin edən əsas ölkələrdəndir. Bir-birinə dost olan iki ölkənin ümumi təhlükəsizlik sahəsində sıx əməkdaşlığı var. Rəsmi Bakı Təl-Əvivin maraqlarına cavab verməyən layihələrdə iştirak etmir. Eyni şəkildə İsrail də təhlükəsizlik məsələsində Azərbaycana əlindən gələn dəstəyi verir. Dost İsrailin hərbi dəstəyinin önəmini Qarabağ müharibəsində, düşmənlə savaşda əyani şəkildə gördük. Savaşda istifadə olunan yüksək texnologiyaya sahib silahların çoxu İsrailin istehsalı idi. Özü də İsrail bu silahları hər ölkəyə satmır".

**T.Rzayev vurğulayıb ki, Azərbaycan-İsrail arasında neft-qaz sahəsindən əlavə digər iqtisadi sektorların da inkişafı göz önündədir:** "Xüsusən, son dönəmlər iki ölkə arasında kənd təsərrüfatı sahəsində mühüm addımlar atılıb. İsrail şirkətləri Azərbaycanın əksər bölgəsində, ələlxüsus işğaldan azad edilmiş ərazilərimizdə kənd təsərrüfatı ilə məşğul olmaqda maraqlıdırlar. İstixana, əkinçilik, suvarma və başqa sahələrdə İsrail təcrübəsi Azərbaycan iqtisadiyyatına ciddi töhfə vermək imkanındadır. Son illərdə turizm sahəsində də canlanma müşahidə olunur. Ticarət və Turizm nümayəndəliklərinin açılması turizm sahəsinin inkişafına ciddi təkan verəcək".

*Analitikin fikrincə, Bakı-Təl-Əviv əlaqələrinin inkişafı Türkiyə-İsrail münasibətlərinin də normallaşmasına müsbət təsir göstərə bilər:* "Nəzərə alaq ki, hər iki ölkə, həm Türkiyə, həm də İsraillə çox yaxın münasibətlərimiz var. Biri qardaş, digəri dost ölkədir. O səbəbdən iki dövlətin gərgin münasibətləri Azərbaycanın da manevr imkanlarını məhdudlaşdırırdı. Türkiyə-İsrail əməkdaşlığı nə qədər genişlənərsə, bizim də maraqlarımız o qədər çox təmin olunar. Artıq Ankara ilə Təl-Əviv arasında təmaslar bərpa olunmaqdadır. Gərginlik əvvəlki səviyyədə deyil. Siyasi məsələlərdə müəyyən fikir ayrılıqlarının olması mümkündür. Ancaq Türkiyə-İsrail arasında kəşfiyyat və hərbi sahədə sıx əməkdaşlıq mövcuddur. İki ölkə Aralıq dənizi hövzəsində də ortaq məxrəcə gəlməyi bacarır".

---



**Dövlət başçısı İlham Əliyev 44 günlük müharibədə Ermənistana silah-sursat yardımı edən və buna şərait yaradan ölkələrin adını çəkib. "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda çıxış edən ölkə rəhbəri vurğulayıb ki, Ermənistan Qarabağdakı müharibəyə Rusiyanı cəlb etmək istəyirdi. Lakin bu, baş tutmadı:**

# Həqiqətləri söyləmək lazımdır

## Müharibə dövründə hansı dövlətlərin yanımızda olduğunu gördük

"Ermənistan dəfələrlə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının öhdəlikləri ilə manipulyasiya etməyə cəhdlər göstərib. 44 günlük Vətən müharibəsi dövründə yük təyyarələri vasitəsilə Rusiyadan Ermənistana müntəzəm olaraq silahlar daşınıb. Biz bu marşrutu izlədik - Rostovdan və Mozdokdan gəlirdi. Biz gürcüstanlı dostlarımıza dedik ki, onlar hava məkanını bağlasınlar və onlar bunu etdilər. Eyni zamanda, onlara dedik ki, Rusiyadan Ermənistana Gürcüstanın quru ərazisindən silah daşınmasının qarşısını alsınlar. Onlar quru yolunu da bağladılar. Biz Xəzəryanı dövlətlərə məktub göndərdik ki, onlar Rusiya yük təyyarələrinin öz ərazilərindən Ermənistana silah daşınmasına icazə verməsinlər. Bu barədə Qazaxıstan, Türkmənistan və İrana müraciət yollamışdıq. Lakin təəssüflər olsun ki, həmin ərazilərdən silah daşınması üçün istifadə edildi və o silahlar Ermənistana daxil oldu".

**Ölkə rəhbərinin açıqlamasını "Şərq"ə dəyərləndirən politoloq Natiq Miri deyib ki, bəzi həqiqətlərin zamanzaman dilə gətirilməsinə ehtiyac var. Ekspert bildirib ki, münasibətlər sistemində bütün ölkələri tərəzinin eyni gözünə qoymaq olmaz:** "44 günlük Vətən müharibəsində kimlərin yanımızda, daha doğrusu, haqq-ədalətin yanında olduğunu gördük. Əlbəttə, bunu unutmamalı və yeri gəldiyində dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq. Bilinməlidir ki, qonşu və regional dövlətlər, xüsusən türk respublikaları Ermənistanla haqq savaşında hansı mövqedə dayanıblar. Rusiyanın hər vəchlə, müharibənin son gününə kimi Ermənistanı silahlandırması və müxtəlif yollarla hərbi texnikalar göndərməsi ermənilərin işinə yaramadı. Prezident dolayı yolla bəyan edir ki, Azərbaycan təkcə Ermənistanı deyil, həm də Rusiyanın hərb maşınını məhv edib. Ermənistanda Rusiyanın havadan müdafiə sistemlərindən tutmuş raket sistemlərinə qədər hər cür silah var idi. Buna rəğmən, ermənilərin işğalçı ordusu darmadağın edildi və təslim olmağa məcbur oldu".

**N.Miri dövlət başçısının türk ölkələrinə mesajını da şərh edib:** "Türk dövlətlərinə verilən mesaj bundan ibarətdir ki, Rusiya xofunu tədricən üzərlərindən atmaq lazımdır. Ortada Ukrayna nümunəsi var. Qorxaq mövqe ilə qardaş türk ölkəsini rus və ermənilərin ayağına vermək, öz ərazisindən Ermənistana silah ötürülməsinə imkan yaratmaq milli kimliyə xəyanətdir. Ölkə başçısının mesajı təkcə beynəlxalq tədbir iştirakçılarına deyildi. Həmçinin, türk toplumlarına ünvanlanmış mesaj idi. Həqiqətlərin dilə gətirilməsinin tərəfdarıyam və bunun doğru addım olduğunu düşünürəm. Hər kəs bundan öz payını götürməlidir".

İsmayıl

---



# "Qazi" adından istifadə edənlərə ən ağır cəza verilməlidir

## Çingiz Qənizadə: "Belə adamlara aramızda və cəmiyyətdə yer olmamalıdır"



**Bu günlərdə özünü "Vətən müharibəsi qazisi" kimi qələmə verərək hərbi geyimdə əlil arabasında dilənçiliklə məşğul olan bir şəxs saxlanıb. O, açıq etiraf edib ki, insanların qazilərə həssas münasibət göstərməsindən sui-istifadə edərək özünü "qazi" kimi təqdim edərək dilənçilik etməklə yolunu tutub.**

Dilənçilik edən şəxsin əməlləri polis tərəfindən ifşa edilib. DİN-in mətbuat xidmətinin əməkdaşı Nurlan Əliyev bildirib ki, belə dələduzlarla əlaqədar "Məscidlərin, ziyarətgahların ətrafında belə insanlar vətəndaşların etibarından sui-istifadə edərək onları aldatmağa cəhd göstərirlər. Hər zaman vətəndaşlarımıza tövsiyə edirik ki, diqqətli olsunlar.

Bütün ictimai yerlərdə bu kimi neqativ hallarla bağlı polis əməkdaşları tərəfindən tədbirlər həyata keçirilir. Bir məqamı da qeyd etmək istəyirəm ki, vətəndaşlar tərəfindən də bu kimi hallar aşkarlanarsa, müşahidə olunarsa, dərhal Daxili İşlər Nazirliyinin 102 zəng mərkəzinə məlumat versinlər", - deyə N.Əliyev bildirib.

Ekspertlərin fikrincə, qazi adı ilə dilənçilik edənlərə elə ağır cəza verilməlidir ki, bu, başqalarına dərs olsun və bir də belə təxribatlara yol verənlər tapılmasın.

Sözügedən şəxs sadəcə maddi gəlir əldə etmək məqsədilə bu addımı atsa da, bu görüntü ölkəmizi istəməyən qüvvələr tərəfindən ölkəmizdə şəhid ailələrinə və qazilərə "qayğı göstərilmədiyi" rəyi formalaşdırmaq üçün istifadə edilə bilər.

**Sabiq millət vəkili, hüquq müdafiəçisi Çingiz Qənizadə "Şərq"ə açıqlamasında müqəddəs qazi adından istifadə edən bu cür yaramaz, dələduz insanların çox olduğunu böyük təəssüf hissi ilə ifadə edib:** "Postmüharibə dövründə biz bir çox hallarda bunun şahidi olduq. İnsanlara müəyyən vədlər verməklə qazi ailələrini, şəhid ailələrini aldadan şəxslər, qazilərimizin və şəhid ailələrimizin adlarından sui-istifadə edərək xoşagəlməz davranışlar sərgiləyən saxtakarlar çox oldu. Halbuki belə hərəkətlərə yol verənlərin nə qaziliklə, nə də şəhid ailələri ilə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Qazi adından istifadə edib dilənən, gəlir əldə edən insanlara aramızda və cəmiyyətdə yer olmamalıdır. Bir ayağını itirmiş qazi timsalında küçədə dilənən bir yaramazın polis orqanları tərəfindən ifşa olunması və onun əlilliyinin saxta olmasının görüntülərlə sübut olunması hüquqi aspektdən alqışalayıqdır. Amma ölkəmizdə, xalqımızın arasında bu cür vicdansız adamların olması, saxta qazilərin peyda olması mənəvi baxımdan çox ağrılı məsələdir".

**Sabiq deputatın sözlərinə görə, bu, sadəcə, qazi adından sui-istifadə deyil. Bununla həm də ölkəmizdə şəhid ailələrinə və qazilərə "qayğı göstərilmədiyi" rəyini yaradaraq ölkənin imicinə zərər vururlar:** "Bir növ müqəddəs qazi adının ictimaiyyətin önündə mövqeyinin kiçildilməsidir. Yəni dövlət qazilərin qeydinə qalmır, görürsünüz nə gündədir və s. Bu baxımdan, bunu adi cinayət hesab etmirəm və məncə, həmin şəxs çox sərt formada cəzalandırılmalıdır.

Hər birimiz görürük ki, ölkə rəhbərliyi tərəfindən qazilərimizə, şəhid ailələrimizə dövlət tərəfindən böyük qayğı və diqqət göstərilir, onların ən kiçik problemlərinə belə həssaslıqla yanaşılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirak ediblər. Yaşayış kompleksi doqquzmərtəbəli 12 binadan və 576 mənzildən ibarətdir. Kompleksin ərazisində 100 yerlik uşaq bağçası və bir inzibati bina inşa olunub. Həmçinin sakinlərin və övladlarının asudə vaxtının səmərəli təşkili üçün şərait yaradılıb və kompleks bütün zəruri infrastrukturla təmin edilib. Bu hadisələr fonunda hansısa bir dələduzun qazi adı ilə dilənçilik etməsini özünü əks etdirən görüntülər xoşagələn deyil. Ölkəmizə gələn xarici qonaqlar, turistlərin Bakı küçələrində dilənən "qazi" görməsi dövlətin öz qazilərinə diqqət və qayğı göstərmədiyi görüntüsünü yarada bilər. Sözsüz ki, bu əməli törədən saxtakar inzibati məsuliyyətə cəlb olunacaq, amma onlara qarşı ictimai rəy formalaşdırmaq üçün maarifləndirici tədbirlər həyata keçirilməlidir".

Şəymən

---

# Mirzoyanın ABŞ səfəri...

## Ermənistan özünü Rusiyanın caynağından çıxarıb ABŞ-ın ağuşuna atmaq istəyir

**"Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyanın ABŞ-a səfəri, Dövlət Departamentinin rəhbəri Entoni Blinkenlə görüşməsi Qərblə Rusiya arasında bütün cəbhələrdə misli görünməmiş qarşıdurma fonunda izah edilməlidir".**



Amma bu addım Ermənistanın taleyini qaranlıqlara sürükləyən hadisələrlə müşayiət olunacaq

**Bu barədə "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Ermənistanın perspektivə dair arzusu özünü Rusiyanın caynağından çıxarıb ABŞ-ın ağuşuna atmaqdan ibarətdir.** Amma bu addım Ermənistanın taleyini qaranlıqlara sürükləyən hadisələrlə müşayiət olunacaq: "Rusiya və ABŞ-ın Ermənistan uğrundakı savaşı tərəfləri İrəvanı etibarlı tərəfdaş kimi nəzərdən keçirməsindən irəli gəlmir. Erməni kartı hər ikisinin əlində bir vasitədir, daha doğrusu, Ermənistan tərəflər üçün "faydalı axmaq" rolundadır. Ermənistanda Nikol Paşinyanın hakimiyyətdən devrilməsi üçün planların dövriyyədə olduğu zamanda İrəvan özünü ABŞ-a tutaraq Moskvadan gələn təhdidləri önləmək istəyir, amma bu, əbəs olacaq. Hərçənd ki, Mirzoyanın səfəri zamanı ABŞ-Ermənistan strateji dialoqunun bərpa ediləcəyi və mülki nüvə əməkdaşlığına dair anlaşma memorandumunun imzalandığı açıqlanıb. Dünyada baş verən proseslər, Cənubi Qafqazdakı reallıq isə Ermənistanı kiminsə qucağında əyləşmək siyasətindən çox, onu Azərbaycan və Türkiyə ilə münasibətləri bütün parametrlər üzrə normallaşdırmağa məcbur edir.

Həmin sənədin imzalanması sadəcə ABŞ-Ermənistan münasibətlərində diplomatik mexanizmin tərkib hissəsidir və bu, Ermənistan üçün xilas yolu hesab oluna bilməz. Çünki İrəvanla Vaşinqton arasında 1997, 2007, 2017-ci illərdə də bu cür saziş imzalanıb, bu, Ermənistana nə əlahiddə üstünlük verib, nə də İrəvan üçün ABŞ tərəfindən tənzimlənən qoruyucu mexanizmə çevrilib".

**A.Kərimov vurğulayıb ki, imzalanacaq sənəd "Metsamor" atom elektrik stansiyasının istismarına töhfə verə bilər. Lakin bu da ancaq Rusiya-ABŞ-Ermənistan formatında birgə istismarı mümkün edəcək:** "Çünki Rusiyanın "Rosatom" şirkəti "Metsamor"u Ermənistan hökuməti ilə birgə idarə edir. Buna görə də Kremlin iqtisadi rıçaqları əldən verəcəyini düşünmək sadəlövhlük olar.

Digər yandan Ermənistanla Rusiya arasında əlavə bir neçə nüvə reaktorunun tikintisinə dair razılıq da mövcuddur. Qarışıq situasiya ilə üzləşən Ermənistanın Rusiyanın çətiri altından çıxıb ABŞ-a sığınması ən azından mümkünsüzdür, ta o zamana qədər ki, Moskva xarici siyasət konsepsiyasına köklü dəyişiklik etsin və ekspansiya niyyətlərindən əl çəkdiyini bəyan etsin. Rusiyanın köklü siyasətini əhəmiyyətli dərəcədə redaktə etməsinə dair üfüqlərdə işartı yoxdur, ona görə də, Ermənistan Cənubi Qafqazdakı yeni reallıqların şərtləri çərçivəsindən kənara çıxaraq revanşizm üçün ümid yerləri axtarmaq sevdasından vaz keçməlidir.

Postmünaqişə gerçəkliyi Ermənistan üçün Azərbaycan və Türkiyənin diktələri altında hərəkət etməkdən başqa seçim yolu qoymur, burada Rusiyanın da təzyiq mexanizmləri rola sahibdir. Lakin nə ABŞ, nə Rusiya Azərbaycan-Ermənistan, Türkiyə-Ermənistan münasibətlərinin öz qlobal strateji iradələrindən kənara sıçrayan addımlar fonunda tənzimlənməsini istəmir. ABŞ və Rusiyanın nə istədiyi yox, prosesə necə töhfə verəcəyi Azərbaycan-Türkiyə ikilisinin gündəliyindədir, Bakı da, Ankara da, diktəedici ideyalardan uzaq olan bütün praqmatik təkliflərə açıqdır. Əgər Ermənistan özünü Moskvanın qabığından çıxarsa, Rusiya-Ermənistan münasibətlərinə yenidən baxılması zəruriliyi ortaya çıxacaq və qəzəbli Kremlin cavabı başqa cür olacaq".

İsmayıl Qocayev

# Paşinyan devrilsə sülh danışıqları risk altına düşəcək

## Erməni müxalifəti baş naziri "öz silahı" ilə vurmağa çalışır



### Rusiyanın etirazda maraqlarının olduğu bəllidir və iki məqam bu fikri gücləndirir

İsmayıl Qocayev

**Ermənistan müxalifətinin bir neçə gündür paytaxt İrəvanda başlatdığı etiraz aksiyaları daha da şiddətlənib. Polislə etirazçılar arasında paytaxtın mərkəzi küçələrində iğtişaşların baş verdiyi, küçə qarşıdurmalarının yaşandığı deyilir.**

Parlamentin vitse-spikeri, "Daşnaksütyun" partiyasının idarə heyətinin nümayəndəsi İşxan Saqatelyan deyib ki, birləşmiş müxalifət İrəvanın mərkəzindəki "Fransa meydanı"nda çadırlar quraraq, gecələməyə hazırlaşır və bazar ertəsi genişmiqyaslı vətəndaş itaətsizliyi aksiyalarına start veriləcək". Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan aksiya iştirakçılarını ziyarət edərək onlarla söhbətləşib, foto çəkdirib. Bazar günü keçirilən aksiyada ölkənin ikinci prezidenti olmuş Robert Koçaryan da iştirak edib. Xatırladaq ki, Ermənistanın Baş naziri Nikol Paşinyan ölkə parlamentində məlum çıxışı zamanı müxalifəti qəzəbləndirəcək və onlara mübarizə üçün yeni tezislər sayılan ciddi açıqlamalar vermişdi. Baş nazir bəyan etmişdi ki, "Ermənistan və Azərbaycan tezliklə sülh sazişi bağlamalıdır", həmçinin vurğulamışdı ki, "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır" və s. Əslində Paşinyan bu sözlərlə ölkə ictimaiyyətini mövcud reallıqlarla barışmağa, əks təqdirdə hərbi əməliyyatların qaçılmaz olduğuna inandırmağa çalışırdı. Paşinyan başa düşür ki, sülh müqaviləsi tez bir zamanda imzalanmasa, nə Türkiyə ilə münasibətlər normallaşacaq, nə də Ermənistan Rusiyanın təsirindən xilas ola biləcək. Paşinyanın Qarabağın "statusu"nu arxa plana keçirməsi, Türkiyə və Azərbaycanla münasibətlərin normallaşdırılması istiqamətində fəallığa başlaması isə müxalifətə yeni fürsətlər yaradıb. Hazırda radikal müxalifətin bütün qanadları Baş nazir Nikol Paşinyanı devirmək üçün birləşib. Müxalifət etiraz gücünü və qələbəyə inamı artırmaq, eləcə də etirazçıların say çoxluğuna nail olmaq üçün simvolikadan geniş istifadə edir. Misal üçün, etirazçılar hazırda İrəvanın "Fransa meydanı"nda daha kompakt şəkildə toplaşıb. Paşinyan da vaxtilə etirazlara buradan başlamışdı. Etirazçılar bununla əslində Paşinyana "vaxtilə etdiyini təkrarlayaraq, səni inqilabla devirəcəyik" mesajını verir.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, Paşinyanın Qarabağın "statusu"nun arxa plana keçməsi haqda açıqlamasından sonra İrəvanda oturaq aksiyaya başlayan müxalifət baş nazirin istefası tələbini irəli sürür.** Analitik qeyd edib ki, aksiyada diqqətçəkən məqam müxalifətin Paşinyanı "öz silahı" ilə vurmaq cəhdidir: "2018-ci ildə Nikol məhz İrəvanda yürüşlər keçirməklə küçələri bloklayırdı, eyni taktikanı indi ona qarşı istifadə edirlər və "Fransa meydanı"nın seçilməsi də eyni ssenarinin tətbiqinə hesablanıb, hərçənd, hakimiyyətin əli daha güclü görünür və proseslərin dəyişikliyə səbəb olacağı ehtimalını azaldan səbəblər var. Etirazçıların sayı lazım olan qədər deyil. Mayın 1-də aksiyada 15 min insan iştirak edib, mayın 3-də keçirilən aksiyada isə 5 mindən bir qədər çox adam olub. Müxalifət küçələri bloklamaqla gündəlik həyatı dayandırmaq və insanların etiraza qoşulmasına nail olmaq planını tətbiq etməyə çalışır. Hakimiyyət buna qarşı ciddi dirəniş göstərir. Qərbin Paşinyana dəstəyi hakimiyyətə inzibati resurslardan geniş istifadə etmək imkanı yaradır. Polisin sərt müdaxiləsi və bölgələrdən gələn etirazçıların qarşısı alınır. Etiraz sosial yox, Qarabağ məsələsindən qaynaqlanır və sosial problemlərə görə keçmiş hakimiyyəti devirən ermənilərin əksəriyyəti indiki aksiyalara neytral qalmağa üstünlük verir. Müxalifətin tələbləri və açıqlamalarından yeni müharibə qoxusu gəlir. Son parlament seçkilərində Paşinyanın seçilməsi ermənilərin böyük hissəsinin yenidən müharibənin olmasını istəmədiyini, ən azı indi istəmədiyini təsdiqlədi və bu situasiya fonunda etirazların kütləviləşəcəyi gözləntisi azdır. Erməni əhalisi keçmiş klan hakimiyyətlərinə - Sarkisyan və Koçaryana yenidən "yaşıl işıq" yandırmaq istəmirlər".

**Ekspert vurğulayıb ki, erməni kilsəsi və erməni diasporu proseslərə açıq dəstək vermir. Bunun səbəbləri arasında Qərb ölkələrinin Paşinyana dəstəyi də yer alır:**

"Rusiyanın etirazda maraqlarının olduğu bəllidir və iki məqam bu fikri gücləndirir. Birincisi, aksiyanın təşkilatçılarının Moskva ilə bağlantılarıdır. Sarkisyan və Koçaryan müharibədən sonra eyni "masada" əyləşməkdən imtina etsələr də, hər ikisinin Rusiya ilə əlaqələri var və hər ikisi prosesdən qazanclı çıxmaq istəyir. İkincisi, etirazların başlama motivi və tələblərdir. Müxalifət Azərbaycanla sülh sazişinin imzalanmasına etiraz edir və bu, Moskva üçün Brüssel razılaşmasının dondurulması baxımından sərfəlidir. Lakin Moskva aksiyadan Paşinyanı devirmək yox, daha çox təzyiq məqsədilə istifadə edir. Nikol ruslara onların vasitəçilik etdiyi üçtərəfli razılaşmaların icrası üçün lazımdır və Moskvanın hazırkı hədəfi öz masasındakı razılaşmaların aktuallığını qorumaq, mümkün sülh sazişində maraqlarının nəzərə alınmasına nail olmaqdır. Paşinyanın devrilməsi "rus masası"nda əldə olunan razılaşmaları da riskə atır. Çünki hakimiyyətə gələcək istənilən qüvvə üçün bunu icra etmək çətin olacaq. Bu baxımdan, Rusiya müxalifətin etirazı üzərindən Paşinyana Qərb masasından uzaqlaşması, Bakı ilə "ikitərəfli format"dan imtina etməsi üçün təzyiq edir. Bu prosesin Paşinyana müəyyən mənada sərf etdiyini də deyə bilərik. Ermənistan hakimiyyəti "daxili vəziyyət sülh sazişini imzalamağa imkan vermir" arqumenti ilə prosesin ən azı uzanmasına, sülh sazişi gündəliyinə istəklərinin daxil edilməsi şəraitinin yetişməsinə qədər vaxt qazanmağa çalışa bilər. Mümkündür ki, Paşinyan nəzarətdən çıxmaması şərtilə etirazların davam etməsinə şərait yaradacaq".



# Rusiya-Ukrayna müharibəsində qalib olmayacaq

## Tərəflər razılığa gəlib, problemin diplomatik müstəvidə həllini tapmağa çalışacaqlar

**Rusiya-Ukrayna müharibəsi davam edir. Cəbhə xəbərləri, diplomatların açıqlamaları, prezidentlərin bəyanatlarının ardı-arası kəsilmir. Ötən gün Rusiya və Fransa prezidentləri Vladimir Putin və Emmanuel Makron arasında telefon danışığı baş tutub.**

Liderlərin telefon danışığı 2 saatdan çox çəkib. Rusiya prezidenti fransalı həmkarının diqqətini Avropa İttifaqı ölkələrinin Ukrayna silahlı qüvvələrinin hərbi cinayətlərinə məhəl qoymamasına yönəldib.

Putin bildirib ki, Qərb Kiyev hakimiyyətinə müvafiq təzyiq göstərməklə, eləcə də Ukraynaya silah tədarükünü dayandırmaqla bu "vəhşiliklər"in dayandırılmasına kömək edə bilərdi. Bundan başqa mediaya verdiyi digər müsahibəsində Rusiya-Ukrayna danışıqlarına diqqət çəkən Rusiya lideri bəyan edib ki, Kiyevin qeyri-ardıcıllığına və ciddi işə hazır olmamasına baxmayaraq, Rusiya tərəfi əvvəlki kimi dialoqa açıqdır.

**Dövlətlərin münasibətlərini "Şərq"ə dəyərləndirən hərbi-siyasi ekspert Həşim Səhrablının fikirlərinə görə, demək olar, dünya siyasi, diplomatik cəhətdən Rusiyanı təkləyib:** "Tərəflərin güzəştə getmə ehtimalı əvvəl də var idi. Sadəcə, güzəştə getmək istəmirdilər. İndi də ehtimal özünü qoruyub saxlayır. Güzəştə gedən tərəf istəyər ki, qarşı tərəf kompromisə hazır dayansın. Rusiyanın Ukrayna, həmçinin Qərb blokundan müəyyən güzəştlər almaq qarşılığında güzəştə getməsi mümkündür.

Rusiyanın döyüşdən əvvəlki nüfuzundan və gücündən əsər-əlamət qalmayıb. İki aydan çoxdur rəsmi Moskva iqtisadi potensialını səfərbər edib. Onunla ittifaq münasibət qurması gözlənilən Çin və İran kimi dövlətlər belə Rusiyanı dəstəkləyə bilmədilər, yaxud istəmədilər. 1 ay əvvəl Rusiyanın qələbə qazanma şansı daha çox idi. Artıq indi bu şans əhəmiyyətli dərəcədə azalıb. Rusiya kompromislərə daha açıqdır, artıq qələbə qazana bilməyəcəklərini hesablayır. Rusiyanı məğlubiyyətə uğratmaq da asan məsələ deyil. Amma böyük ehtimal müharibədən qalib çıxa bilməyəcək. Sadəcə, tərəflər razılığa gəlib, əməliyyatları dayandırıb, problemin diplomatik müstəvidə həllini tapmağa çalışacaqlar".

**H.Səhrablının qənaətincə, Rusiya Ukraynada kifayət qədər qüvvə itirib, hərbi, siyasi, iqtisadi cəhətdən zərbə alıb:** "Onun rəqibləri, düşmənləri tək Ukrayna ilə məhdudlaşmır. Çin kimi hegemon ölkə, postsovet məkanı Rusiyaya nifrət bəsləyən sərhədboyu dövlətlərlə əhatəlidir. Yaponiya amili mövcuddur, Qərb isə canlılığını qoruyur. Bunların fonunda Rusiya öz hərbi qüvvəsini tam anlamda itirmək istəmir. Digər təhlükələrə qarşı özünü canlı tutmağa hədəfləyir. İsti əməliyyatların sonunu görə bilərik. Rusiya 9 maya qədər hədəfinə çatmağını planlayırdı. Qələbə paradını daha təmtəraqlı keçirtməyə can atırdı. Görünür, mümkün deyil. Hər şeyi diplomatik vasitələrlə çözməyə səy göstərəcəklər".

**Aygün Tahir**

# "Küləyə qalib gəl"

## Bakıda bu şüarla marafon keçiriləcək




**Mayın 15-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Bakı Marafonu - 2022" keçiriləcək.**

Fonddan verilən xəbərə görə, "Küləyə qalib gəl" şüarı altında beşinci dəfə keçirilən Bakı marafonu bu il fərqli marşrutda təşkil ediləcək.

Yarışın start nöqtəsi ilə yanaşı finişi də Dövlət Bayrağı Meydanında olacaq və 21 kilometrlik məsafəni əhatə edəcək.

Yarışda iştirak üçün qeydiyyat mayın 10-dək davam edəcək. 18 yaşdan yuxarı şəxslər Bakı şəhərinin ticarət mərkəzlərindəki ("28 Mall", "Gənclik Mall", "Dəniz Mall") qeydiyyat məntəqələrinə və ya "Bakı Marafonu - 2022"nin saytına - www.marathon.az müraciət edə bilərlər.

# Bakının ən möhtəşəm yerində görünəcəklər

## Hər şəhidin adı Zəfər parkında həkk olunacaq

İsmayıl Qocayev

**Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasət həyata keçirilir. Həmin siyasətin mühüm tərkib hissələrindən biri də şəhid ailələri üzvlərinə, müharibə əlillərinə və müharibə iştirakçılarına göstərilən diqqət və qayğıdır. Bununla bağlı ölkə prezidenti dövlət orqanları qarşısında vəzifələr müəyyənləşdirir, lazımi tapşırıqlar verir, normativ hüquqi aktlar qəbul olunur, mövcud qanunvericilikdə dəyişikliklər edilir.**

Bu kateqoriyadan olan şəxslərin sosial ödənişləri artırılır, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində və digər praktik tədbirlər həyata keçirilir. Müharibədən sonra "YAŞAT" Fondunun yaradılmasındakı qayə də məhz budur. Mayın 2-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirak etmələri, daha sonra şəhid Mahir Məmmədovun ailəsini ziyarət etmələri bu istiqamətdə aparılan işlərin daha bir nümunəsidir. Ramazan bayramı günündə həmin ziyarətin və açılışın baş tutması, orada 200 mənzil və 50 avtomobilin təqdim edilməsi ölkə başçısının idarəçilik konsepsiyasında həm də milli-mənəvi dəyərlərimizə sadiqliyin dayanmasının daha bir təzahürüdür. Bu, onu göstərir ki, hər zaman bu məsələ də diqqətdə saxlanılır. Vətən müharibəsindən sonra sosial sahədə görülən işlər daha geniş vüsət alıb. Ötən il yanvarın 1-dən şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə və Milli qəhrəmanlara verilən Prezident təqaüdünün məbləği artırılıb. Vətən Müharibəsi Qəhrəmanı təqaüdü təsis edilib. 1991-1997-ci illərdə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi zamanı xəsarət almış şəxslərə və onların ailə üzvlərinə birdəfəlik ödəmələrin verilməsi haqqında Fərman imzalanıb. Postmüharibə dövründə əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin rifahının yüksəldilməsinə yönələn sosial dəstək paketi 100 min nəfəri əhatə edib. Onlara 166 min xidmət göstərilib. Bu dövr ərzində şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Mənzil proqramı 5 dəfə genişləndirilib. Ötən il 3 min, postmüharibə dövründə isə 3500 mənzil verilib. Ümumilikdə isə 12 min 500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlərlə təmin olunub. 7400 müharibə əlilinə isə avtomobil təqdim olunub. Vətən müharibəsinin 200 hərbçisi ümumilikdə isə 300 müharibə əlili son nəsil protezlərlə, 1400 müharibə əlili isə reabilitasiya vasitələri ilə təmin edilib. Onların müalicəsi üçün reabilitasiya mərkəzlərində lazımi şəraitlər yaradılıb, həmin mərkəzlər son tələblər səviyyəsində avadanlıqlarla təchiz edilib. 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub. Bir sözlə, dövlətimiz şəhid ailələri, qazilər, müharibə veteranları üçün əlindən gələni edir və bundan sonra da edəcək.




**Azərbaycan rəhbərliyinin şəhid ailələri və müharibə qazilərinə göstərdiyi diqqət və qayğı barədə "Şərq"ə danışan millət vəkili Ceyhun Məmmədov deyib ki, cənab Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva daim Azərbaycan xalqının yanındadır, xalqla bərabərdir.** Deputat bildirib ki, Ramazan bayramının mühüm özəlliyindən biri də xeyir işlər görmək, insanları sevindirməkdir: "Bayram günləri ən gözəl əməllərdən biri də şəhid ailələrinə və müharibə veteranlarına diqqət ayırmaq, qayğı göstərmək, problemlərini həll etməkdir. Ölkəmizdə şəhid ailələrinə, müharibə veteranlarına diqqət böyükdür. Onlara mütəmadi evlər verilir, avtomobillə təmin olunurlar və s. Xüsusi vurğulamaq lazımdır ki, Ramazan bayramını ölkə rəhbərliyi şəhid ailələri, müharibə veteranları ilə birlikdə qeyd edirlər. Dövlət başçısı davamlı olaraq öz ad gününü şəhid ailələri, qazilər, məcburi köçkünlərlə keçirir". Parlament üzvü bu istiqamətdə görülən işlərdə Heydər Əliyev Fondunun müstəsna xidmətlərinin olduğunu deyib: "Mehriban xanımın rəhbərliyi ilə çox möhtəşəm işlər görülüb və görülməkdə davam edir. Şübhəsiz, Azərbaycan xalqı ölkə rəhbərliyinin gördüyü işi çox yüksək qiymətləndirir. Çoxlu sayda insanların problemi həll olunur, şəhid ailələri, qazilər müalicə üçün Türkiyəyə göndərilir. Bu həm də xalq-iqtidar birliyinin növbəti göstəricisidir".

**Millət vəkili Cavid Osmanov da "Şərq"ə bildirib ki, şəhid ailələri və müharibə əlilləri hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzində olub və bununla bağlı dövlət qurumlarına müvafiq tapşırıqlar verilib.** Deputat bildirib ki, dövlət başçısı şəhid ailələri və müharibə əlillərinə daimi diqqət və qayğını dövlət qurumları qarşısında bir vəzifə kimi müəyyənləşdirib: "Şəhid ailələri və müharibə əlillərinə 200 mənzil və 50 avtomobilin təqdim olunmasının məhz müqəddəs Ramazan bayramında gerçəkləşməsi də təsadüfi deyil. Humanizm, sosial qayğıya ehtiyacı olan ailələrə xüsusi diqqət və islam dəyərlərinə sadiqlik Prezidentin idarəçilik konsepsiyasının mühüm tərkib hissələrindəndir. Sosial məsələlərin həlli ilə bağlı ortaya qoyulan siyasi iradə və ardıcıl praktik addımlar deməyə əsas verir ki, Azərbaycan sosialyönümlü dövlət modeli formalaşdırıb. Qlobal bazardakı dəyişikliklərdən, tələb-təklifdən, yeni çağırışlardan doğan islahatlar belə, sosialyönümlü tədbirlərlə kompensasiya edilir. Başqa sözlə, bazar iqtisadiyyatının möhkəmlənməsi üçün kompleks tədbirlər sistemi əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarına xidmət edir. Bu siyasət postmüharibə dövründə xüsusilə geniş vüsət alıb". Parlament üzvü şəhidlərin adının əbədiləşdirilməsinin hər zaman diqqət mərkəzində olduğunu vurğulayıb: "Prezident İlham Əliyev Zəfər muzeyi yaradılacağını da bildirib. Zəfər parkı Bakının ən möhtəşəm yerlərinin birində, bəlkə də birincisində - Dənizkənarı bulvarın önündədir. Orada böyük xatirə kompleksi inşa ediləcək. İşlərə yaxın zamanlarda start veriləcək. Hər şəhidin adı orada həkk olunacaq. Azad edilmiş bütün şəhərlərdə, hər bir şəhərdə Zəfər muzeyi, İşğal muzeyi yaradılacaq. Yəni bütün şəhidlərimizin adı əbədi yaşayacaq. Çünki Zəfər sevincini onlar bizə bəxş ediblər".

# Bu il ölkəmizə səfər edən turistlərin sayı 50 faiz artacaq

## Təkcə mart ayında Türkiyədən Azərbaycana 24 mindən çox turist gəlib



***"Turizmin yenidən inkişafına təkan verən PSR testinin ləğv edilməsi oldu"***

**Karantin qaydalarının yumşaldılması, qapalı məkanlarda maska tələbinin ləğvi, hesabla turizm sektorunu canlandırmalıdır. 2020-ci ilə nisbətən 2021-ci ildə ölkəyə gələn turistlərin sayında artım nəzərə çarpdı.**

Bunu şəhərin mərkəzi hissələrində, xüsusən İçərişəhər ərazisində, Nizami küçəsi, Fəvvarələr bağında dolaşan əcnəbilərin çoxluğu təsdiq edirdi. Amma yenə də karantin rejiminin mövcudluğu, COVİD pasportu tələbi turist axınının qarşısını kəsən amillər idi. Lakin şərtlər artıq dəyişdi. Karantin qaydalarında müsbət dəyişiklik, həmçinin ümumi yoluxma statistikasında nəzərəçarpan azalma, ölüm hallarınınsa demək olar sıfırlanması əcnəbi qonaqlarımızın sayını artıra bilər. **Dövlət Turizm Agentliyi sədrinin müşaviri Kənan Quluzadə "Şərq"ə açıqlamasında 2022-ci il hədəflərinin 2019-cu ilin göstəricilərini yenidən əldə etmək, hətta üstələmək olduğunu dedi:**

- Qapalı məkanlarda tibbi maskalardan istifadə zərurətinin aradan qalxması daxili məsələdir. Daxili auditoriyaya hesablanır. Turizmin yenidən inkişafına təkan verən PSR testinin ləğv edilməsi oldu. Məhz bu, turist axınına şərait yaradan amildir. Bizim proqnozumuz belə idi ki, 2021-ci illə müqayisədə 2022-ci ildə Azərbaycana səfər edənlərin sayı 50 faiz artacaq. Amma mövcud vəziyyət proqnozları artıq üstələyir. 2022-ci ilin təkcə I rübü ərzində ölkəmizə 246.277 nəfər əcnəbi turist səfər edib. Mart ayında səfər edənlərin sayı 95.844 nəfər oldu. Bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 11 faiz artıqdır. Mart ayında Türkiyədən Azərbaycana 24 mindən çox turist gəlib. İlk beşlikdə ənənə demək olar pozulmayıb. Ölkəmizə səfər edən turistlərin sayına görə qardaş Türkiyə ilk sıradadır. Sonra Rusiya, İran, Gürcüstan və Ukrayna gəlir. İlk 15-liyə baxsaq, Pakistan, BƏƏ, Küveyt, Özbəkistan, Belarus... və sair ölkələrdir. Əlbəttə, bu göstəricilər 2019-cu illə müqayisədə aşağıdır. Turizm sektoru mövcud potensialın 40 faizini qaytara bilib. Səbəb məlumdur. Pandemiya hələ bitməyib. Bir sıra ölkələrdə yeni yoluxma faktları ortaya çıxır. Karantin qaydaları heç də bütün ölkələrdə aradan qalxmayıb, insanların səyahət marağı hələ tam dirçəlməyib; insanlar pandemiya şokundan yeni-yeni ayılır. Belə vəziyyətdə Azərbaycan ümumi turist sayının 40 faizini qaytara bilibsə, bunun özü uğurdur. Optimistik, daha böyük rəqəmlər əldə edəcəyimizə, daha çox əcnəbinin marağını cəlb edə biləcəyimizə inamımız böyükdür. Çünki Azərbaycanın bunun üçün hər cür imkanı, potensialı var. Bu sahədə müsbət tendensiya müşahidə edilir. Turizm sektoru bərpa olunur.

**K.Quluzadə qeyd etdi ki, Qarabağın işğaldan azad edilməsi Azərbaycanın turizm potensialını əsaslı şəkildə artıran amildir:**

- İşğaldan azad edilmiş ərazilərə maraq çox böyükdür. Amma bilirsiniz ki, turizmin 3 ilkin şərti var: təhlükəsizlik, infrastrukturun bərpası və əhalinin qayıdışı. Bunların hər üçü vacib şərtlərdir və bir-birinə bağlıdır. Qarabağda aparılan quruculuq işlərini hamımız müşahidə edirik. Şuşada mehmanxanalar tikilir, Ağdamda otelin təməli qoyulub. Beynəlxalq aeroport fəaliyyətdədir artıq. Təhlükəsizlik məsələləri və əhalinin qayıdışı da tamamlandıqdan sonra Qarabağa əcnəbi turistlərin səfərləri təşkil ediləcək. Əcnəbi turistlər indidən Qarabağa can atır. Uyğun şərait bərpa olunduqda Qarabağ turist marşrutu ən sıx marşrutlardan biri olacaq.

**K.Quluzadə qeyd etdi ki, Dövlət Turizm Agentliyi tanıtım bazarını genişləndirir:**

- Geo-siyasi vəziyyət istənilən halda turist axınının tərkibinə də təsir edir. Bu vaxta qədər Rusiyadan, Ukraynadan gələnlər daha çox idisə, məlum hadisələr turist axınına da mənfi təsir göstərdi. Amma Azərbaycana gələn turist sayına görə Ukrayna yenə də ilk beşlikdə qərarlaşıb. Əsas məqsədimiz turizm bazarındakı dəyişiklikləri dəyərləndirməkdir. Bunun üçün də intensiv marketinq işi aparılmalıdır. Bura kompleks işlərin görülməsi, strategiyanın hazırlanması, turizm marşrutlarının təyini, turizm məhsulları və sair daxildir. Azərbaycanın turizm sənayesi daha çox turist qəbul etməyə hazırdır. Bunu nəzərə alaraq çalışırıq ki, əməkdaşlıq edəcəyimiz ölkələrin sırası genişlənsin. Avropa ölkələri, Uzaq Şərq, Yaponiya... hədəflərimiz sırasındadı. Hesab edirəm ki, yaxın 2 ildə 2019-cu ilin nəticələrini əldə edə biləcəyik. Bu il isə baxmayaraq ki, əcnəbi turist axını artıb və artacağı da gözlənilir, əsas lokomativ daxili turizm olacaq.

**Məlahət Rzayeva**

**Dünya katoliklərinin lideri, Roma Papası Fransisk Rusiya Pravoslav Kilsəsinin Patriarxı Kirillə Zoom videoformatında görüşüb. Papa deyib ki, silahlardan istifadəyə və müharibəyə son qoymaq üçün din xadimləri dinc həll yolları aramalıdırlar. O, Kiyevə yollanmaq fikrində olmadığını söyləyib:**

"Bunu dəfələrlə demişəm. Hiss edirəm ki, belə



# Kirildən möcüzə gözləməyə dəyməz

## Müharibəni Roma Papası özü Putinlə təmas quraraq diplomatik yolla dayandıra bilər

səfərə ehtiyac yoxdur. Əvvəlcə Moskvaya getməli, Putinlə görüşməliyəm". Roma Papası bildirib ki, rus pravoslav kilsəsinin rəhbəri videogörüş əsnasında tam 20 dəqiqə əlində xəritə tutaraq Rusiyanın Ukraynaya qarşı müharibəsinə haqq qazandırmağa çalışıb: "Tam 20 dəqiqə əlində xəritə tutaraq müharibəyə haqq qazandırmaqla məşğul oldu, əlindəki kağızdan oxuyaraq məni inandırmağa çalışdı. Dinlədim və dedim: qardaşım, heç nə anlamıram, dövlət məmuru deyilik. Siyasətin yox, İsa Məsihin dilindən istifadə etməliyik. Patriarx prezident Putinin keşişinə çevrilə bilməz. Sən Putinin şəxsi keşişi deyilsən axı...". Papa Kirilin Putini geri addım atmağa razı sala biləcəyinə inanmadığını deyib. Roma Papası Ukraynadakı müharibə ilə bağlı bədbin əhval-ruhiyyədə olmaqla bahəm, Vladimir Putinin indi müharibəni dayandıracağına inanmır. O, müharibənin dayandırılması üçün Patriarx Kirilin də Rusiya Prezidenti Vladimir Putinə təsir edə biləcəyinə ehtimal vermir. Papa əlavə edib ki, Macarıstan prezidenti, Avropada Putinə ən yaxın dövlət və hökumət başçısı sayılan Viktor Orban ona Rusiyanın Ukraynada hərbi əməliyyatları mayın 9-da bitirmək niyyətində olduğunu deyib: "Bu proqnozun Almaniya üzərində qələbənin ildönümünün simvolik əhəmiyyətindən savayı nəyə əsaslandığını bilmirəm. Bədbinəm. Lakin müharibəni dayandırmaq üçün hər şeyi etməliyik". Xatırladaq ki, Rusiya Pravoslav Kilsəsinin Patriarxı Kirill indiyədək açıq-aşkar şəkildə Rusiyanın Ukraynadakı hərbi əməliyyatlarını dəstəkləməsə də, bütün son bəyanatlarında və açıqlamalarında Rusiya hakimiyyətinin siyasəti imlə həmrəy olduğunu bildirib. Məsələn, o, "Donbassda metafizik mübarizə gedir, donbaslılar iyrəncilikləri, o cümlədən gey-paradları istəmirlər" demişdi: "Kimsə ilə savaşmırıq, tarix boyu Rusiya kimsəyə hücum etməyib. Heyrətamizdir - qüdrətli və böyük ölkə heç vaxt kimsəyə hücum etməyib, yalnız sərhədlərini qoruyub". Rusiyanın "tarix boyu kimsəyə hücum etməməsi" ilə bağlı iddia absurd olduğundan, patriarx Kirilin bu açıqlaması Qərbdə istehza ilə qarşılanıb.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, Roma Papası Rusiya patriarxı ilə yanaşı, ABŞ, Fransa və İngiltərəyə də müraciət etməlidir. Professorun sözlərinə görə, sülh çağırışı Rusiya ilə yanaşı, Qərbə də ünvanlanmalıdır:** "Müharibəni başladan Rusiyadır, ancaq savaşı körükləyən Qərb ölkələridir. Əlbəttə, katoliklərin rəhbərinin Kirilə müraciəti müsbət və məntiqli gedişdir. Amma Kiril Rusiyada nəyisə dəyişmək, nəyəsə təsir göstərmək gücündə deyil. Kreml "dinin dövlətdən ayrı olduğunu" bəyan edərək Kirilin siyasi-hərbi məsələlərə müdaxiləsinə imkan vermir. Rusiyanın dini lideri kəşfiyyat orqanları ilə sıx əlaqədədir. Kəşfiyyatın razılığı və təlimatı olmadan Kiril özbaşına addım ata bilməz. Belə şəraitdə Kirilin Putini müdafiə etməsi anlaşılandır. Hər ikisinin paqonu var, lakin Kirilin paqonu gizlidir, görünmür. Həm də ruslar dindar topluluq deyillər ki, öz dini liderlərinin çağırışına dərhal əməl etsinlər, ən azından nəzərə alsınlar. Amma Roma Papası doğru analiz edir ki, müharibəni bitirmək üçün Moskvaya səfər etməli və Putinlə görüşməlidir. Papa Putinlə videoformatda da görüşə bilər. O, təkcə dini lider deyil, eyni zamanda teokratik dövlət olan Vatikanın rəhbəri, prezidentidir. Yəni rəsmi statusu da var. Roma Papası üç aydır gedən müharibəni dini liderlərə çağırışla deyil, Putinlə təmas quraraq diplomatik yolla dayandıra bilər. Kirilin Kreml rəhbərindən asılı olduğu hamıya bəllidir. Belə məqamda ondan möcüzə gözləmək yersizdir".

**İsmayıl Qocayev**



# Birincilərin qəbul qaydalarını daha da sadələşdirməliyik

## "Müəllim seçimi sistemdən silinsə, daha effektiv olar"

**4 may 2022-ci il tarixindən birinci siniflərə qeydiyyat prosesi başlanılıb. Təhsil Nazirliyindən verilən məlumata görə, saat 11:00-dan etibarən 2022-2023-cü tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna start verilib.**

Ümumi təhsil müəssisələrinin I siniflərinə qəbul prosesi www.mektebeqebul.edu.az elektron portalı vasitəsilə aparılacaq.

Qeyd edək ki, Azərbaycan bölməsi üzrə məktəb seçimi prosesinə isə mayın 6-dan başlanılacaq.

Həmin tarixdən dövlət ümumi təhsil müəssisələrinin tədris digər dillərdə aparılan birinci siniflərinə qəbulla bağlı müsahibəyə yazılmaq üçün qeydiyyat prosesinə də start veriləcək.

Birinci sinfə qəbulla bağlı elektron qeydiyyat prosesi 14 sentyabr 2022-ci il tarixində başa çatacaq.

**Təhsil üzrə ekspert Kamran Əsədov "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycanda 2016-cı ildən etibarən uşaqların birinci sinfə qəbulu elektron qaydada həyata keçirilir və bu, kifayət qədər prosesin sürətli, əlçatan olmasına imkan verir:** "Çox təəssüf ki, bu zamana qədər birinci sinfə qəbul zamanı əsassız tələblər olurdu. Valideynlər məktəblərə müraciət edəndə onlara yerin olmadığı deyilirdi. Həmçinin bu və ya digər sinfə yerləşdirilməklə bağlı əsassız pul istəkləri olurdu. Amma artıq 6 ildən çoxdur ki, uşaqların birinci sinfə qəbulu elektron qaydadadır. Düzdür, yenə müəyyən texniki çətinliklərə rast gəlinir. Sistem açılandan qısa müddət sonra şagirdlərin valideynləri kütləvi şəkildə müraciət edirlər. Bu zaman saytda yüklənmələr, problemlər yaranır. Bu, ciddi bir məsələdir. Bundan əlavə, bildiyimiz kimi Bakı şəhərində yaşayan şəxslərin böyük əksəriyyəti paytaxtda qeydiyyatda deyil. Onlar övladlarına şəxsiyyət vəsiqəsi alarkən bir çox hallarda məktəbin mikroərazisində həmin elektron ərizə olmur. Bu zaman da uşaqların qeydiyyatında problemlər yaranır. İlk növbədə Bakı şəhərində uşaqların qəbulu zamanı məktəbin yerləşdiyi mikroərazidə mütləq şəkildə valideyn yaşamalıdır. Başqa bir məsələ isə kimin ki interneti var, sürətli şəkildə kompüterlə işləyə bilir, bu adamlar daha çevik olaraq, övladlarının qeydiyyatını həyata keçirə bilirlər. Amma hansısa valideynin internet imkanı zəifdirsə və texniki bilikləri aşağı səviyyədədirsə, o, həmin məktəbdə sinif tapmaqda müəyyən qədər əziyyət çəkir".

**Ekspert hesab edir ki, prosesi daha da sadələşdirməliyik:**

"Valideynlərin daha çox müraciət etdiyi məktəblərə əlavə müəllimlər qəbul etməklə daha çox uşaqların qeydiyyatını reallaşdırmaq mümkündür. Bu gün valideynlər o məktəbləri seçirlər ki, orada tədrisin keyfiyyəti yüksəkdir, digərləri isə sadəcə formal tədrislə məşğuldurlar. Mütləq şəkildə orta ümumtəhsil məktəblərinə qəbulda müəllim seçimini sistemdən bağlamalıyıq. Yəni hər kəs seçimi müəllimin adı olmadan, sinfin nömrəsinə görə etməlidir. Görürük ki, bir məktəbdə hər hansı müəllimə kütləvi şəkildə müraciət var, digərinə isə yox. Bu da müəyyən qədər çətinlik yaradır. Ona görə də müəllim seçimi sistemdən silinsə, daha effektiv olar".

**Sücayət Mehti**

# Ailə münaqişələri uşaqlara keçib

## Adətən intihar hadisələrində əsas səbəblər açıqlanmır



**"Bəzən ailələr bilərəkdən bunu edir, bəzən də aidiyyəti orqanlar hadisə ilə bağlı araşdırma aparıb reallığı üzə çıxarmağın marağında olmur"**

**Bakı şəhər sakini, 17 yaşlı Xumar Babayeva Xətai rayonu ərazisindəki çoxmərtəbəli yaşayış binasından özünü atıb.**

O, eyvanın altında dayanan, bu zaman onu tutmağa cəhd edən bina sakini 38 yaşlı Zahid Niyazovun üzərinə düşüb. Nəticədə X.Babayeva hadisə yerində ölüb, Z.Niyazov isə xəstəxanaya yerləşdirilib, vəziyyəti orta-ağırdır. İlkin araşdırmalarla X.Babayevanın intihar etməsinə səbəb imtahanda zəif nəticə göstərməsi olduğu müəyyən edilib.

**Gənc qızın intihar səbəblərini dəyərləndirən psixoloq Azad İsazadənin "Şərq"ə açıqlamasına görə, intihar edən qızın imtahanda zəif nəticə göstərməsi səbəbindən özünə qəsd etməsi ilkin versiyadı. Adətən baş verən intihar hadisələrində əsas səbəblər açıqlanmır:** "Bəzən ailələr bilərəkdən bunu edir, bəzən də aidiyyəti orqanlar hadisə ilə bağlı araşdırma aparıb reallığı üzə çıxarmağın marağında olmur. Daha doğrusu, konkret bu sahə ilə məşğul olacaq peşəkar qurum yoxdur. Ancaq polislər bununla məşğul olur, onlar da daha çox hüquqi işlərlə. Psixoloji və sosioloji araşdırmalar aparılmır. Ona görə də baş verən hadisə ilə bağlı ətrafdakı insanlardan toplanan fikirlər əsasında ümumi bir rəy verilir. 17 yaşlı bir tələbənin intihar etmə səbəbi imtahan nəticəsindən daha çox sevgi və ailə münaqişəsi ola bilər. Bunu da istisna etmirəm qətiyyən. Gənclər üçün hər hansı bir uğursuzluq ümidlərin qırılmasına səbəb ola bilir. İlk sevginin baş tutmaması, imtahandan kəsir, hər hansı bir pis hərəkətin valideynə çatması gəncdə belə fikir yarada bilər ki, artıq yaşamağa dəyməz. Əgər mərhum həqiqətən də imtahandan zəif nəticə göstərdiyi üçün özünü atıbsa, bu artıq bardağı daşıran sonuncu damla olub. Ona qədərsə artıq depresiya və həyatından bezməsini şərtləndirən səbəblər mütləq olub. Həmişə deyirəm, "intihar" depresiyanın zirvəsidir. İnsan uzun müddət depresiyada olur, ondan çıxış yolu tapmır və intihara əl atır. Nadir hallarda bir gün insan intihar qərarı verir - bu çox böyük bir stresin nəticəsində də ola bilər".

***"17 yaşlı bir tələbənin intihar etmə səbəbi imtahan nəticəsindən daha çox sevgi və ailə münaqişəsi ola bilər"***

Psixoloqun sözlərinə görə, adətən qəbul imtahanından kəsilən abituriyentlərin intihar etməsi faktları ilə çox sıx qarşılaşırıq. Hər il abituriyentlərin arasında bir neçə intihar halı və ya cəhdi qeydə alınır: "Cəmiyyətdə belə bir fikir formalaşıb ki, mənim uşağım kəsilib, qonşunun uşağı qəbul olsa, bu, mənim üçün biabırçılıqdır. Bunlar hər il olub, yenə də olacaq. Çünki buna qarşı heç kim, praktiki olaraq heç nə etmir. Buna qarşı real bir addım atmır. Uşaqları psixoloji hazırlamaq lazımdır. Abituriyentlər qəbul qabağı mənim yanımda çox olur. Onlarda bir çox problemlər olur. Ailələr bu cür məqamlarda uşaqlarının yanında olmalıdır. Onların bu vəziyyətə düşməsinə icazə verməməlidir. Abituriyent o həddə çatır ki, ona verilmiş ikinci şansı gözləyə bilmir.

Bu yaşda insanlar üçün instituta qəbul olunmamaq həyatın bitməsi kimi qəbul olunur. O bir müddət səbr edib, bu prosesi yenidən başlamağa hazır olmur. Uşağın fiziki və intellektual gücü bitir. Bununla da onlar artıq yaşamaq istəmirlər. İntihar etməklə özlərinə təsəlli tapırlar. Bu fikirdə olan insanda ilk növbədə məntiq pozulur. Məntiq pozulması nəticəsində qeyri-obyektiv qərar qəbul edirlər. Nəticə isə belə olur. Amma artıq universitetə qəbul olunmuş bir tələbənin zəif nəticə göstərdiyinə görə özünü binadan atması əsaslı səbəb deyil".

**A.İsazadənin fikrincə, binadan özünü ataraq intihar edən gənci xilas etməyə çalışan adamın bu cəhdi təqdirəlayiqdir. Bu adam bir çoxlarından fərqli olaraq şahidi olduğu intihar hadisəsinə biganə qalmayıb:** "Öz həyatını riskə atmaq bahasına qızı xilas etmək istəyib. Amma görünür, xilas etmə təcrübəsi olmadığından, bu barədə FHN-in xilasetmə qaydalarını bilmədiyindən ağır xəsarətlər alıb.

Psixoloq kimi onu deyə bilərəm ki, intihar edən şəxs görəndə iti hərəkət etməmək, yavaş səs tonu ilə danışmaq və aradakı məsafəni yavaş-yavaş azaltmaqla həmin şəxsə yaxınlaşmaq lazımdır. Hay-küylə qarşılamaq, qaçmaq, qışqırmaq intihar astanasında olan adamı daha da panikaya sala və intihar cəhdini tez reallaşdıra bilər. Özünü atmaq istəyən şəxsi xilas etmək istəyərkən onla bir yerdə də düşə bilərik".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İctimai və dövlət maraqlarının müdafiəsi**

# Vətəndaşlar artıq icbari tibbi sığortadan yararlana bilir

## Yeniliklər əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini daha da yüksəldəcək




**İcbari tibbi sığortanın mərhələli şəkildə tətbiqindən sonra 2021-ci il aprelin 1-dən etibarən tibbi sığorta bütün ölkəni əhatə etdi. Artıq Azərbaycan vətəndaşları icbari tibbi sığortadan faydalana bilir. İcbari tibbi sığortanın bütün ölkə üzrə tətbiqinə başlanması əlbəttə ki, dövlət siyasətinin sosial yönümlü olması, dövlət resurslarının insanların rifahı, sağlamlığı, rahat yaşayışının təmin edilməsinə istiqamətləndirilməsinin göstəricisidir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı fərman və sərəncamlar dövlət resurslarının vətəndaşların maraqlarına xidmət etməsi məqsədi daşıyır. İcbari Tibbi Sığorta Agentliyi publik hüquqi şəxsin yaranması və ölkədə icbari tibbi sığortanın tətbiqinə başlanması da əhalinin rifahı naminə atılan ən əhəmiyyətli və uğurlu addımlardan biridir. İcbari tibbi sığortanın tətbiqində hansı irəliləyişlər olub, ictimaiyyət bundan nə dərəcədə razıdır, bütün bu suallara Agentliyin İdarə Heyətinin sədri Zaur Əliyevin 2021-ci ilin yekunları və 2022-ci ilin ilk 3 ayı üzrə fəaliyyətlə bağlı keçirdiyi mətbuat konfransında aydınlıq gətirildi. Ötən il əldə olunan nəticələr haqqında məlumat verən Agentliyin İdarə Heyətinin sədri bildirib ki, 1 aprel 2021-ci il tarixindən etibarən icbari tibbi sığortanın bütün ölkədə tətbiqi nəticəsində səhiyyə sahəsindəki ən əhəmiyyətli islahatlardan biri həyata keçmiş oldu: "2021-ci ildə icbari tibbi sığorta çərçivəsində dövlət tibb müəssisələrinin əhaliyə göstərdiyi xidmət sayı 22 milyondan çox olub. Bu dövrdə Agentliyin müqavilə bağladığı özəl tibb müəssisələrində göstərilən cərrahi xidmət sayı isə 27 305-ə yüksəlib. Beləliklə, icbari tibbi sığortanın tətbiq olunduğu ərazilərdə əhalinin 42 faizi tibbi xidmətlərdən yararlanıb. Xidmətlər Zərfi çərçivəsində göstərilən tibbi xidmətlər vətəndaşların ən çox müraciət edilən, habelə əlillik və ölüm riski olan xəstəliklər üzrə müayinə və müalicə olunmalarını təmin edib". İdarə Heyətinin sədri tibbi statistik göstəricilərlə yanaşı səhiyyə işçilərinin əməkhaqqı artımından və tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsindən danışıb: "2021-ci ildə səhiyyə işçilərinə 717 milyon manatdan çox vəsait ödənilib və bu nəticə 2020-ci illə müqayisədə 18 faiz artım əldə edildiyini göstərir. Təchizata gəldikdə isə qeyd olunmalıdır ki, ötən il ərzində tibb müəssisələri 5 248 ədəd yeni cihaz və avadanlıqla təmin olunub, 274 tibb müəssisəsində İKT infrastrukturunun qurulması üzrə işlər görülüb". Agentliyin eyni zamanda tibb müəssisələrində struktur dəyişiklikləri apardığını bildirən Z.Əliyev vurğulayıb ki, məqsəd idarəetməni təkmilləşdirmək və vətəndaşın tibbi xidmətə əlçatanlığını artırmaqdır: "İslahatlar çərçivəsində keçən il ölkə üzrə fəaliyyət göstərən Ailə Sağlamlıq Mərkəzlərinin sayı 278-ə yüksəlib, Bakı şəhərinin rayonları üzrə 11 tibb mərkəzi, Sumqayıt şəhərində isə Sumqayıt Tibb Mərkəzi yaradılıb. Ən mühüm yeniliklərdən biri isə 2021-ci ilin oktyabr ayından etibarən Şuşa şəhərində modul tipli xəstəxananın fəaliyyətə başlamasıdır. Müəssisə ötən il ərzində 1 256 pasiyent qəbul edib". 2021-ci ildə 4 053 636 nəfər icbari tibbi sığortadan istifadə edib. Ümumilikdə 10 milyon 348 min 289 nəfər icbari sığortaya müraciət edib". 2021-ci ildə 27 özəl tibb müəssisəsi ilə müqavilə bağlanıb. Z.Əliyev qeyd edib ki, Xidmətlər Zərfinə dəyişikliyin edilməsi barədə də Agentlik tərəfindən layihə hazırlanıb və aidiyyəti quruma təqdim olunub. Layihəyə əsasən 700 tibbi xidmətin İcbari Tibbi Sığorta üzrə Xidmətlər Zərfinə daxil edilməsi, ümumilikdə 3000-dən çox tibbi xidmətin icbari tibbi sığorta çərçivəsində göstərilməsi nəzərdə tutulur. İlkin səhiyyə xidməti, TTTYX, laborator, ambulator və stasionar tibbi xidmətlər üzrə Agentlik tərəfindən tibb müəssisələrinə ödənilən 1000-dən çox xidmətin tarifi artırılıb. Xidmətlər Zərfinin yaxın bir ay ərzində təsdiqlənməsi gözlənir. Əsas məsələlərdən biri də "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsidir. Həkimlərin əməyinin qiymətləndirilməsi və həvəsləndirilməsi məqsədilə "Əməyin Ödənilməsi Qaydası"na dəyişikliklər edilməklə 31 ixtisas üzrə çalışan həkimlərin aylıq əməkhaqlarının bütün məcburi tutulmalardan sonra net məbləğinin 1000 manata çatdırılması nəzərdə tutulur. "Bu, səhiyyə işçilərinin əməyinin ödənilməsi qaydasına edilən sayca 5-ci dəyişiklikdir. Çalışırıq tibbi xidməti alan tərəf məmnun olduğu qədər xidməti verən tibb işçiləri də icbari tibbi sığortanın tətbiqindən razı qalsın. Məqsədimiz tibb işçilərinin sosial rifahını yaxşılaşdırmaq və tibbi xidmətlərin vətəndaşlara əlçatanlığını təmin etməkdir. Hazırkı artım 31 ixtisas üzrə çalışan 8 minə yaxın həkimə şamil olunacaq. 17 ixtisas üzrə çalışan həkimlərin maaşında artım 2 dəfəyədək təşkil edəcək. 14 ixtisas üzrə çalışan həkimin maaşında isə artım 20-90 faiz arası dəyişəcək. Maliyyə imkanları artdıqca səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydasına yenidən baxaraq onların sosial müdafiəsi daha da gücləndiriləcək.

**Əhaliyə göstərilən icbari tibbi sığorta xidmətinin əhəmiyyətindən danışan tibb üzrə fəlsəfə doktoru Şəmsiyyə Namazlı "Şərq"ə açıqlamasında tətbiq edilən və tətbiqi gözlənilən yeniliklərin vətəndaş maraqlarına xidmət etdiyini bildirdi:**

- Hazırda fəaliyyət göstərən həkim olaraq deyə bilərəm ki, vətəndaşlar icbari tibbi sığortadan yararlana bilir. Doğrudur, bu sahədə irəliləyişlərə ehtiyac var. Məsələn, yerli poliklinikaların maddi-texniki bazasının inkişafı vacibdir. Çünki vətəndaşlar ilk növbədə poliklinikalara müraciət edir, sonra uyğun tibb müəssisələrinə yönləndirilirlər. Buna görə də poliklinikalarda bütün lazımi tibbi avadanlıqların olması və müasir texnologiyalarla çalışa bilən həkim kadrlarının olması vacibdir. İcbari tibbi sığortanın müsbət tərəfləri çoxdur. Əvvəla, bu, səhiyyə sektorunda inkişafa təkan verir. İkincisi, vətəndaşların güzəştli səhiyyə xidmətlərindən istifadəsini, faydalanmasını təmin edir. Məlumdur ki, ölkədə fərqli əhali qrupları mövcuddur. Yaşlılar, təqaüdçülər, məktəbyaşlı uşaqlar, körpələr, həmçinin işsizlər və sair. Dövlət hər bir təbəqədən olan əhalinin tibbi xidmətlərdən güzəştli şərtlərlə istifadəsini təmin edir. Əhalinin işləyən təbəqəsinin əmək haqqından müəyyən tutulmalar həyata keçirilir, lakin tibbi xidmətlərin dəyəri çox zaman bu tutulmaların miqdarını üstələyir. Bu isə dövlət hesabına kompensasiya edilir. Dünyada yəqin çox az ölkə tapılar ki, icbari tibbi sığortadan kənar qalmış olsun. Bu, çox çətin, uzunmüddətli prosesdir. İcbari tibbi sığortaya keçid asanlıqla baş vermir. Əlbəttə, çatışmazlıqlar da olacaq, çətinliklər də. Bütün ölkələr bu prosesi yaşayıb, zaman keçdikcə, hər şey yoluna düşüb. Bizdə də belədir. Vacib olan budur ki, yeniliklər, dəyişikliklər davam edir. Əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və tibb işçilərinin sosial rifahının yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Həkimlərin əmək haqqının artırılması, tibbi xidmətlər zərfinin getdikcə genişlənməsi də bu qəbildəndir. Bir də əsas məsələ, vətəndaşların maarifləndirilməsi, icbari tibbi sığorta haqqında, tibb müəssisələrində göstərilən tibbi xidmətlər haqqında məlumatlara əlçatanlığın təmin edilməsidir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Tələbəlikdən tanınan alim



**Bəxtiyar müəllim haqqında yazılan xatirələr arasında tələbə Bəxtiyar obrazına da çox ras gəlirik. İstər Bəxtiyar müəllimin müəllimi olsun, istər tələbə yoldaşı olsun, istərsə də ondan bir-iki kurs aşağı oxuyan tələbələr olsun, hamısının xatirəsində tələbə Bəxtiyarın işıqlı siması, təmənnasız xeyirxahlığı, fitri istedadı, çalışqanlığı, elmə, təhsilə, müəllimə münasibəti səmimi ifadəsini tapıb.**

Universitet müəllimimiz, filologiya elmləri doktoru, professor Yusif Seyidov "İtirə-itirə gedirik, Allah axırından saxlasın" adlı xatirəsinə belə başlayır: "Qələmi əlimə alıb Bəxtiyar müəllim haqqında xatirə yazmaq istəyəndə qəribə bir təzadlı hiss məni bürüdü. Axı o mənim tələbəm olmuşdu. Axı o bizim aramızda xeyli cavan idi. Mənə "Ağa" deyə müraciət edərdi. Çoxdan həmkar olmağımıza, müəllim kimi illərlə bir yerdə işləməyimizə baxmayaraq, mənə hörmət əlaməti olaraq "Siz" deyərdi. Bu, onun ədəbi ilə, böyük-kiçik münasibətini gözləməsi ilə əlaqədar idi...".

Yusif müəllim öz tələbəsinin tərbiyəli, əxlaqlı olmasını üç amillə əlaqələndirir: birinci, onun ailəsi, soy-kökü, müqəddəs ocaqda dünyaya gəlməsi, o ocağın ənənəsini qoruyub saxlaması və davam etdirməsi; ikinci, həqiqi elmə sahib olması, öz şəxsində elmlə müəllimlik etikasını birləşdirə bilməsi; üçüncü, insan əqlinin, insan təfəkkürünün bütün sahələrini əhatə edən, elm və fəlsəfə, ədəb və təlim məktəbi, insanlıq məktəbi olan klassik ədəbiyyat məktəbinin tədqiqatçısı və təbliğatçısı olması ilə...

Universitet müəllimimiz, filologiya elmləri doktoru, professor Abdulla Abbasov isə "Əsl alim, gözəl insan və ustad müəllim" adlı məqaləsində Bəxtiyar müəllimi həm savadlı, sevimli müəllim kimi, həm opponenti olduğu dissertant kimi, həm də müəllimlərinin gələcəyinə ümid bəslədiyi tələbə kimi səciyyələndirir və yazır: "Mən bu insanı tələbəliyindən tanıyıram. Yaxşı oxumağına, elmə, təhsilə məhəbbətinə söz ola bilməzdi".

Bəxtiyar Məmmədzadənin tələbə yoldaşlarının da xatirələrində gözəl bir insanın, hamıdan seçilən savadlı, istedadlı, bütün fənləri eyni səviyyədə öyrənən, müəllimlərinin sevimlisinə çevrilən bir tələbənin portreti boylanır. Bəxtiyar müəllimin qrup yoldaşı və dostu Ağaqulu Niftəliyev "Bəxtiyar Məmmədzadə insanlığın məhək daşı idi" adlı xatirəsində tələbəlik həyatına səyahət edir, o günləri yada salır. Tələbəlik illərində hər kəsin öz xarakterinə uyğun tələbə yoldaşı ilə yaxınlıq etdiyini qeyd edir və özünün Bəxtiyar Məmmədzadə, Tofiq Qəhrəmanov, Zəkəriyyə Yusifov, Ağahəsən Bədəlzadə, Məmməd Təhməzov, Məhərrəm Hüseynov ilə daha çox bir yerdə olduqlarını bildirərək yazır: "Etiraf edim ki, Bəxtiyar istisna olmaqla bizim hər birimizin müəyyən çatışmazlığımız var, amma Bəxtiyar "suya salınıb içiləsi" adam idi. Deyirlər insanın xarakteri, içində gizlətdiyi hisslər çətin, həlledici anlarda üzə çıxır. Belə vəziyyətlərdə də Bəxtiyar dəyişmirdi. Başını aşağı salıb öz işi ilə məşğul olardı. İddialı adam deyildi. Hətta belə vəziyyət yaranmışdı ki, filologiya fakültəsində Lenin təqaüdünə iki tələbənin namizədliyi irəli sürülmüşdü. Onlardan biri bizdən iki kurs yuxarıda təhsil alırdı, o birisi isə Bəxtiyar idi. O öz rəqibinin xeyrinə (əgər buna rəqabət deyilərsə) həmin təqaüddən imtina etdi. Bu hərəkətinə görə hamımız ona irad tutduq. O isə heç birimizə "hesabat" vermədi".

Bəxtiyar müəllimin həm tələbəlik dostu, həm həmkarı, ona şeirlər həsr eləmiş Ağahəsən Bədəlzadə "Bir ibrətli, bir nisgilli xatirə" yazısında tələbəlik illərindən söz açır, ilk görüşdə Bəxtiyarı ciddi, qapalı, qaraqabaq adam kimi tanıdığını, günlər keçdikcə yanıldığını və onun zahiri qapalılığının öz təbii hisslərini boş yerə xərcləməməsi, zahiri qaşqabaqlığının isə əsl xarakterinin əzəmət və orijinallığını qorumaq üçün vacib olan bir zireh olduğunu anladığını qeyd edir. Bu zirehin altında sadə, təmiz, hər cür pisliklərdən uzaq bir ürəyin çırpındığına inanır, Bəxtiyarın xarakterinin heç zaman dəyişmədiyini, onun ömrü boyu özü olduğunu, kimsəyə oxşamadığını xüsusi vurğulayır. Bəxtiyarın sözün əsl mənasında fitri istedad olduğunu, qabiliyyətini dərin mütaliə ilə zənginləşdirdiyini, qarşısındakı elmi pillələri böyük təmkinlə qalxdığını bildirir və təəssüflə yazır: "Bəxtiyar bütün fənlər üzrə özünü nümunəvi tələbə kimi göstərirdi. Demək olar ki, bizə dərs deyən müəllimlərin hamısı söz verirdi ki, onu öz kafedralarında saxlayacaq. Amma...".

Filologiya elmləri doktoru, professor Cəlil Nağıyev "Özəl insan, böyük ziyalı - Bəxtiyar Məmmədzadə" adlı məqaləsində qrup yoldaşının tələbəlikdən fitri istedada malik olduğunu, ömrünü müəllimliyə həsr etdiyini qeyd edərək yazır: "O, Bakı Dövlət Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirdi (o vaxt fərqlənmə diplomu almaq çox çətin idi), o, universitetin yeganə tələbələrindən biri idi ki, beş illik təhsil müddətində bir dənə də olsun "dörd" qiymət almamışdı". Cəlil Nağıyev Bəxtiyar müəllimlə həm bir qrupda oxuyub, həm filologiya fakültəsinin müxtəlif kafedralarında çalışıblar. Sonra Bakı Asiya Universiteti yaradılanda Cəlil müəllim rektor kimi Bəxtiyar müəllimi şərqşünaslıq və filologiya fakültəsinin dekanı vəzifəsinə dəvət edib. Bəxtiyar müəllim ömrünün sonuna kimi həmin vəzifədə çalışıb.

Fəlsəfə tarixi üzrə fəlsəfə doktoru Əli İbrahimov "Şan-şöhrət və bəxtiyarlığa uyan insan deyildi o" adlı yazısında Bəxtiyar müəllim haqqında səmimi xatirələrini bizimlə bölüşür. Bəxtiyar müəllimi "Ciddi, süzgün baxışları ilə az danıışıb "qızıl xırdalayan" sadə və təvazökar bir insan, səhv buraxmamağa çalışan, öz fikirlərini çox ehtiyatla açıqlayan bir Allah adamı kimi xatırlayır. Onun bəşəri duyğulara, insan mənəviyyatına yüksək dəyər verən bir şəxsiyyət olduğunu vurğulayır. Bəxtiyarın oxuduğu beş il müddətində bütün zaçot və imtahanlardan əla almasını, amma Lenin təqaüdünə layiq görüləndə etiraz etdiyini bununla da şöhrət ardınca qaçanlara sanki meydan oxuduğunu qeyd edir və yazır: "Bəxtiyar müəllim elə bil, Allahın etimadını qazananlar sırasında idi. Bu etimadın qazanılması elmə əsaslanan imandan, bu imandan doğan əxlaqdan və belə əxlaqla təmizlənən həyat tərzindən asılıdır. Bu prosesi daha düzgün başa düşmək üçün o, islamın əxlaq fəlsəfəsini dərindən anlayıb və mənimsəyib".

Sevimli müəllimlərimizdən olan filologiya elmləri namizədi Firuz Mehdiyev "Hamımızın əzizi Bəxtiyar" adlı xatirəsində tələbəlik illərində Bəxtiyar müəllimdən iki kurs aşağı oxuduğunu qeyd edir və onunla ilk tanışlığını xatırlayır, tələbə yoldaşları ilə söhbət etdilkərini və bu zaman aralıda dayanmış sarışın, hündürboy, eynəkli bir oğlanın onlara kitabxanaya üzv olmalarını məsləhət görməsini və həmin adamın Bəxtiyar olduğunu bildirir və yazır: "Bir məsləhət yeri bilib bizə qaranlıq olan şeyləri aydınlaşdırmaq üçün tez ona yaxınlaşırdıq. Belə başlayan tanışlıq o, universiteti bitirib gedənə kimi davam etdi. Onunla ən çox təmasda olan mən, xarici ədəbiyyatdan dərs deyən Hökümə xanımın oğlu Aydın və Əliağa Vahidin oğlu Ramiz idi. Kurs işlərimizi yazanda, imtahanlardan qabaq mütləq onunla görüşüb bilmədiklərimizi soruşardıq. Bu istəyir dildən olsun, istəyir ədəbiyyatdan. Allah Bəxtiyara fitri istedad vermişdi". Firuz müəllim həmişə söhbətlərində Bəxtiyar müəllimin savadından, qeyri-adi cəhətlərindən bəhs edərdi. Dostu, müəllim yoldaşı haqqında həcmcə çox kiçik bir yazı yazsa da, mən bilirəm ki, Firuz müəllimin ürəyində Bəxtiyar müəllimlə bağlı bundan qat-qat çox söhbətlər, xatirələr vardır.

Filologiya elmləri doktoru, professor Kamil Vəli "Bir vicdan rəmzi də getdi dünyadan" adlı məqaləsində Bəxtiyarın ölüm xəbərini eşitdiyini, xatirələrə daldığını görürük. O, Bəxtiyarın dostlarından danışır, onun dostlarına etdiyi xeyirxahlıqları xatırlayır, ondan savadsız olanların daha yüksək vəzifələrə getdiyini qeyd edir və bir qədər kinayə və təəssüf hissi ilə yazır: "...Bəxtiyar ədəbiyyatı seçdi. Onun qızıl medalı, aldığı Lenin təqaüdü, fərqlənmə diplomu Biləsuvarın hansısa uzaq kəndində 3 il müəllim işləməyə çatdı.

Mən Bəxtiyardan bir kurs aşağıda oxuyurdum. Bu eynəkli kürən oğlanla heç bir stəkan çay belə içməsəm də, onun buram-buram tüstülənən siqaretinin arxasındakı qeyri-adiliyini, təmizliyini, dərinliyini o qədər aydın görürdüm ki, dost olmasam da, heç bilmədiyim səbəbdən ona dəhşətli dərəcədə həsəd aparırdım...".

Filologiya elmləri namizədi, dosent Məhərrəm Hüseynov "Nurlu şəxsiyyət, bənzərsiz insan" adlı xatirəsində beş illik universitet həyatının onu Bəxtiyarla həmişəlik bağladığını, doğmalaşdırdığını, tarixə dönən Bəxtiyarlı günlərin heç vaxt unudulmadığını, hafizəsində silinməz izlər buraxdığını qeyd edərək yazır: "Onun nurlu obrazını xatırladıqca mənəviyyatımıza işıq düşür, onun məğrur təbiəti gözlərimiz qarşısında canlandıqca bu fitri istedad sahibi ilə eyni ali məktəb mühitində, bir auditoriyada təhsil almaqdan, onunla duz-çörək kəsməkdən, işıqlı çöhrəsindən, iti zəkasından mənəvi dəyərlər əxz etməkdən sonsuz qürur hissi duyuruq".

Daha sonra Bəxtiyarın təbiiliyi, nəzakəti, sözübütövlüyü, sadəliyi, təvazökarlığı, ləyaqəti ilə bənzərsiz şəxsiyyət, hamıya xüsusi ehtiramla yanaşan, təmənnasız xeyirxahlıq edən, ifrat mənəvi saflığı, ruhi zənginliyi, gözütoxluğu ilə fərqlənən bir insan kimi səciyyələndirən müəllif, onun fakültənin bütün sahələrdə mərkəzi fiquru, heyrətamiz təbiəti, dərin intellekti, analitik təfəkkürünün zənginliyi, alicənablığı ilə tələbələrin və müəllimlərin sevimlisi olduğunu vurğulayır və yazır: "Mərhum professor Cəlal Abdullayevlə hər görüşəndə o, Bəxtiyarı vurğulamaqla "Sizin kurs çox güclü idi, əksəriyyət təşkil edirdi" cümləsini sövqi-təbii təkrar edirdi. Sevimli müəllimimizin bu sözləri gerçəkliyi ifadə edirdi. O da həqiqət idi ki, əllidən artıq seçmə tələbə arasında Bəxtiyar yeganə adam idi ki, onun məqbul kitabçasına "əla"dan başqa qiymət düşmədi. Bəxtiyar yeganə tələbə idi ki, onun uğurlarına bütün tələbə yoldaşları ürəkdən sevinirdi. Onun zəngin və işıqlı zəkasını, çalışqanlığını və uğurlarını heyranlıqla alqışlayırdı. Nadir intellekt sahibi özünü, fitri qabiliyyətini təsdiq etdikcə, biz də onun bütün göstəriciləri ilə fəxr edirdik".

Məqalələrində həm qeyri-adiliyi ilə fərqlənən gözəl insan kimi, həm savadlı və başqa tələbələrə təmənnasız kömək edən fitri istedada malik tələbə Bəxtiyarın obrazını yaradan, xatirələrində özlərindən yuxarıda gördükləri, elminə, səciyyəvi cəhətlərinə qibtə ilə baxdıqları, amma çox sevdikləri, uğurlarına daim sevindikləri tələbə Bəxtiyarın portretini çəkən müəlliflərin dəyərli fikirləri olduqca çoxdur. Biz bu yazımızda bu fikirlərin sadəcə bir hissəsindən danışa bildik və Tələbə Bəxtiyarı səciyyələndirməyə çalışdıq...

*Allah Bəxtiyar müəllimə rəhmət eləsin, ruhu şad olsun!*

**Sona Xəyal**

# Ölkəmizə mesaj verilir?

## Xəzərdən 6 ədəd gəmi minasının aşkarlanması sıradan məsələ deyil




**Xəzər dənizinin Azərbaycan sektorunda aparılan ərazi kəşfiyyatı zamanı suyun 60 metrədək dərinliyində 6 ədəd böyük gəmi minası aşkarlanıb.**

Minaların aşkarlandığı ərazi təhlükəsizlik məqsədilə gəmi sürücülüyü üçün müvəqqəti bağlanılıb. Minaların mayın 9-dan etibarən hava şəraitindən asılı olaraq təhlükəsizlik tədbirlərinə əməl edilməklə zərərsizləşdirilməsi planlaşdırılıb. Həmçinin, axtarış tədbirlərinin davam etdiriləcəyi deyilib. Daha sonra açıqlama verilib ki, minalar keçmiş SSRİ dövründə minalanma standartlarına tam əməl edilmədən suya atılıb.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, ümumiyyətlə, tapılan mina indiki situasiyada təsadüfi deyil. Ekspertin sözlərinə görə, Xəzər dənizi hərbi qarşıdurma meydanı deyil və belə bir münaqişə yaxın perspektivdə olmayıb:** "Xəzər dənizində Azərbaycanın strateji neft yataqları var və Azərbaycan iqtisadiyyatının ürəyi burada yerləşir. İddiaların olması təbiidir. Əlbəttə, buna görə birbaşa Rusiyanı ittiham etmək doğru olmaz. Amma, bunun arxasında müəyyən qüvvələrin olması mümkündür. Məqsəd Azərbaycanı təhdid etməkdir. Görünən odur ki, bununla bağlı dəqiq informasiya ictimaiyyətə verilməyəcək. Ancaq bəlli olan odur ki, Azərbaycanı təhdid edirlər. Rəsmi Bakıya indiyə qədər təhdidlər təkcə Rusiyadan olub. Xəzərin Azərbaycan hissəsində, özü də 60 metr dərinlikdə minaların aşkarlanması sıradan məsələ deyil. Ölkəmizə mesaj verilir".

**İsmayıl Qocayev**

# Qarabağın tacı Şuşa

*Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*

**Vətənimizin hər guşəsi onun keçmiş əzəmətini əks etdirən silinməz izlərlə zəngindir.**

**Əsası 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçib, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynayıb.**



Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Şuşanın çiçəklənməsi XVIII əsrdən başlayıb. Şuşa şəhəri bir zamanlar Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilib, onun dövrəsində böyük və güclü sədd çəkilib çox saylı sənətkar məhlələri yaradılıb, ticarət əlaqələri genişləndirilib. Şuşalı tacirlər İran şəhərləri və Moskva ilə ticarət əlaqələri saxlayırdılar, hətta burada Pənəhabad adlanan gümüş sikkə zərb edilirdi. Şuşa XIX əsrin sonu XX əsrin əvvəllərində Qafqazın musiqi mərkəzinə çevrilib, hətta Şuşaya "Qafqazın sənət məbədi", "Kiçik Paris", "Azərbaycan musiqisinin beşiyi" və Zaqafqaziyanın Konservatoriyası deyirdilər. Qədim tarixə malik Topxana meşəsi Şuşanın nadir sərvətlərindən biridir. Topxana meşəsi Şuşa ətrafındakı torpaqların 20 faizini əhatə edir. Şuşa şəhəri 1992-ci il may ayının 8-də erməni birləşmələri tərəfindən işğal edilib.

Azərbaycanda Sovet dövlətinin ilk illərində 1921-ci ildə Şuşa yeni yaradılmış Dağlıq Qarabağ Muxtar vilayətinin mərkəzi kimi müəyyənləşdirilib. Lakin bu qərar 1923-cü ildə dəyişdirilib və mərkəz Xankəndinə köçürülüb.

Ümummilli lider Heydər Əliyev Şuşanın ölkəmiz üçün dəyərini bu sözlərlə ifadə edib: "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur". Prezident İlham Əliyevin bildirdiyi kimi Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.

Ali Baş Komandan İlham Əliyev "Dünya Azərbaycanlılarının Həmrəylik günü "və "Yeni il" münasibətilə xalqa müraciətində 2022-ci ili Şuşa ili elan etdi, yanvarın 5-də isə bununla bağlı sərəncam imzaladı. II Qarabağ müharibəsi nəticəsində Azərbaycanın nəzarət altına aldığı Şuşa ölkənin mədəniyyət paytaxtı elan edilib. 2020-ci il noyabrın 8-də prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın işğaldan azad olunması müjdəsini verərək xalqımıza böyük qürur, sevinc və fəxarət bəxş etdi. Azərbaycanın 28 illik həsrətinə son qoyuldu və xalqımızın tarixi-mədəni irsində xüsusi yeri olan Şuşa geri qaytarıldı. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə 28 il yarım işğal altında olan Şuşa azad edildi, Şuşa indi azaddır, biz Şuşaya qayıtmışıq, biz bu tarixi qələbəni döyüş meydanında qazandıq, cümlələri Azərbaycanın son 100 illik tarixinin ən möhtəşəm müjdəsidir. Azərbaycan bəlkə də son bir əsrdə bu qədər sevinc, qürur yaşamayıb. 44 günlük Vətən müharibəsi və tarixi qələbəmiz Azərbaycan xalqının nəyə qadir olduğunu göstərdi. Bəli, qürurla deyə bilərik ki, bu gün biz qalib ölkənin vətəndaşıyıq. Hər bir Azərbaycan vətəndaşı xoşbəxtdir ki, bu tarixi qələbənin şahidi oldu. Buna görə xalqımıza bu xoşbəxtliyi və tarixi qələbə sevincini yaşadan müzəffər ordumuza borcluyuq. Azərbaycan ordusunun 8 noyabr zəfərinin baş memarı bu zəfərin başlıca müəllifi Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevdir. Ali Baş Komandan 44 günlük Vətən müharibəsində əsl sərkərdəlik qabiliyyətini ortaya qoydu. 2022-ci ilin Şuşa ili elan edilməsi təsadüfi deyil, bu il Şuşa şəhərinin 270 illiyi tamam olur. 2021-ci il 14 Yanvar tarixində Prezidentin ilk Şuşa səfərindən etibarən Şuşanın bərpası başlandı və qısa müddət ərzində böyük işlər görüldü. II Qarabağ müharibəsində Şuşanın azad edilməsi hər kəsi heyran edir, çünki Şuşa topla, tüfənglə, tankla deyil, Azərbaycan oğullarının mərdliyi, cəsarəti sayəsində düşmən tapdağından qurtuldu. Əlbəyaxa döyüşlə igidlərimiz bu torpağı canları, qanları bahasına geri aldılar. Mayın 7-də Şuşanı mədəniyyət paytaxtı elan edən Prezidentin qərarında bildirilir ki, şəhərin Ermənistan ordusu tərəfindən işğalı onun tarixi, mədəni irsinin məhvi ilə nəticələnib. 1989-cu ildən 1991-ci ilə qədər Cıdır düzündə "Xarıbülbül" mahnı festivalı keçirilib. Festival 30 ildən sonra may ayının 12-də yenidən Şuşada keçirilib. Cıdır düzündə hər il may ayında "Xarıbülbül" festivalları keçirilirdi. 2022-ci il aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının 5-ci qurultayı işə başlayıb, aprelin 23-dək davam edən Zəfər qurultayında 65 ölkədən 400 nəfərə yaxın diaspor iştirak edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultayda geniş nitq söyləyərək: "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının qurultayını keçiririk, bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki, tarixi zəfərdən sonra ilk dəfədir ki, Dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, zəfər adı xalqımıza çox yaraşır. Biz buraya zəfər yolu ilə gəlmişik, siz buraya zəfər yolu ilə gəlmisiniz, qurultayın adı zəfər qurultayıdır"- kimi dediyi sözlər xalqımıza bir daha ruh yüksəkliyi, qürur, sevinc bəxş edir və onlarda vətənpərvərlik hisslərini daha da alovlandırır. Xatırladaq ki, Dünya Azərbaycanlılarının I qurultayı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2021-ci ildə, II qurultay Prezident İlham Əliyevin sərəncamına əsasən 2006-ci ildə, III qurultay 2011-cı ildə, IV qurultay isə 2016-cı ildə keçirilib.

Şuşanın azad edilməsi son əsrdə Azərbaycan tarixinin ən şanlı qələbəsidir.

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs, əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Burada Elvin Elxanoğlunun bu misraları yadımıza düşür.

**Bundan sonra Xarıbülbül,**
**Qorxa-qorxa açmayacaq,**
**Qədim Şuşa qalasına,**
**Düşmən ayaq basmayacaq.**

**Vəlisoy Şəlalə,**
**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin tarix müəllimi**

## Elanlar

Azərbaycan Turizm və Menecment Universiteti, Turizm və Qonaqpərvərlik fakültəsinin TO 1803 qrup tələbəsi Yahyazadə Nuray Babək qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş gizir Bağırov Qadir Əliağa oğluna məxsus SQ 0017719 nömrəli gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

"İxtisaslaşdırılmış Kənd Tikinti" ASC səhmdarlarına elan edir ki, 13.06.2022-ci il tarixində ASC 2021-ci il fəaliyyətinin iclası keçiriləcək.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin Tovuz rayon şöbəsi tərəfindən (keçmiş Tovuz Rayon Hərbi Komissarlığı) Həsənov Rövşən İlyas oğlunun adına verilmiş 029882 nömrəli Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Abbasov Anar Tanrıverdi oğlunun adına YAP-ın Binəqədi rayon təşkilatı tərəfindən 2004-cü ildə verilmiş № 325994 üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Quliyev Zabil Famil oğlunun adına YAP-ın Mingəçevir təşkilatı tərəfindən 2004-cü ildə verilmiş № 345125 üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

# Heç kəs "gözü çıxmış qardaş"ından dərs almır

## Əlinizdə mütləq nigah sənədi olmalıdır



**Yazar Şəbnəm Bəkirzadə Qarslı feysbuk hesabında Türkiyə vətəndaşı ilə evlənmək arzusunda olan xanımlarımıza müraciət edib.**

Ş.Qarslı öz müraciətində çox böyük təəssüf hissi ilə bizim gözəl, ağıllı və təhsilli xanımlarımızın belə Türkiyə eşqinə rəsmi nikah bağlamadan tanımadıqları insanlara qoşulub getdiklərini yazıb. Sonradan isə onların oturma izni, nikah, övladını Azərbaycana apara bilməmə kimi problemlə üzləşdiklərini, köməyə möhtac durumda qaldıqlarına dair xəbərlər aldıqlarını qeyd edib: "Əvvəla siz siz olun, Bakıda rəsmi nikaha girin. Rəsmi nikah üçün tələb olunan sənədləri bəzi evlilər və ya boşanmışlar gətirmək istəmirlər, çünki orada bütün detallar qeyd olunur. Adamın həqiqətən subay olduğunu bilməyinizin tək yolu o sənəddir. "Səadət" sarayında nikah bağlayıb Türkiyə səfirliyində təsdiqlədin. Əlinizdə hər iki ölkənin sənədi olsun: evlilik cüzdanı və nikah şəhadətnaməsi. Bir də ki, Türkiyəyə gəldiyiniz gündən oturma izni alın. Qaçaq yaşamayın. Həyatdır, ayrılmaq istəsəniz, sizi deport edər, uşaqlarınız əlinizdən alınar".

Qeyd edək ki, Şəbnəm xanımın bu müraciəti ilk deyil. Ortada yüzlərlə acı nəticə, faciələr var, amma heç kəs "gözü çıxmış qardaş"ından dərs almır. Keçirilən maarifləndirici tədbirlər, aparılan araşdırmalar, aşkara çıxarılan dramlar da bir nəticə vermir. Əcnəbi oğlana ərə getmək xülyasında olan qızlarımız sanki bütün xəbərdarlıqlara gözlərini yumub, qulaqlarını da tutub.

> ***"Qadınlarımız əcnəbi vətəndaşla nikah bağlamaq istəyirsə, ilk növbədə həmin ölkənin səfirliyinə, yaxud diplomatik nümayəndəliyinə sorğu ilə müraciət edib, lazımi məlumatlara malik ola bilər"***

Onlar dərk edə bilmir ki, internet, televiziya vasitəsilə xaricdəki həyat haqda təsəvvürlər, əcnəbi bəylərin sözləri bəzən onları yanlış istiqamətə yönəldir. Yanlış seçim isə onların həyatı bahasına başa gəlir.

**İnsan Hüquqları üzrə Maarifləndirmə İctimai Birliyinin sədri, hüquqşünas İradə Cavadovanın "Şərq"ə açıqlamasına görə, əksər hallarda xanımlarımız bu cür yanlışlığı öz razılığı ilə etdiyi üçün onlara kömək etmək mümkün olmur.**

Hüquqşünas hesab edir ki, qadınlar ailə quran zaman rəsmi nikah məsələsini mütləq şəkildə tələb etməlidir. Xüsusilə də əcnəbi vətəndaşlarla evlənən qızlarımız üçün rəsmi nikah şərt olmalıdır:

"Qadınlarımız əcnəbi vətəndaşla nikah bağlamaq istəyirsə, ilk növbədə həmin ölkənin səfirliyinə, yaxud diplomatik nümayəndəliyinə sorğu ilə müraciət edib, lazımi məlumatlara malik ola bilər. Nikah bağlamağa hazırlaşdıqları şəxslə bağlı səfirliklərə müraciət edib onun cinayət törətmiş, yaxud cinayətə meyilli adam olub-olmadığı barədə məlumatlar əldə etmək mümkündür.

Əcnəbi şəxslərlə Azərbaycan vətəndaşları ailə qurduqda, bu, Azərbaycan qanunvericiliyi ilə tənzimlənir. Ona görə də Azərbaycan vətəndaşları üçün hüquqi cəhətdən bir sıra problemlər yarana bilər. Çünki əcnəbi şəxsin başqa şəxslərlə rəsmi nikahda olub-olmamasını müəyyənləşdirmək çətindir. Bəlkə həmin şəxs elə evlidir? Türkiyədə, yaxud da başqa bir xarici ölkədə ailəsi var? Axı bütün bunları dəqiqləşdirmədən qızlarımız niyə əcnəbilərə qoşulub gedirlər? Bir halda ki, hər hansı bir əcnəbi şəxs haqqında səfirliklər məlumat verir, onu araşdırmaq nə çətin işdir ki?

Amma çox təəssüflər olsun ki, qadınların əksəriyyəti insanı tanımadan, bilmədən ailə qurur, evlənir, övlad sahibi olur, sonradan da bir çox problemlərlə üzləşmək məcburiyyətində qalır. Ümumiyyətlə, ailə qurarkən tərəflər bir-biri ilə bağlı mümkün qədər çox məlumat əldə etməlidirlər. Xüsusən də bu, əcnəbilərə aiddir. Biri-birini tanıyan, qohumluq bağları olan adamlar da evlənir, sonra problemlər üzə çıxır. Amma bir halda ki, xarici ölkənin vətəndaşı ilə ailə qurmağa hazırlaşırsan, xüsusilə ehtiyatlı olmalı və şəxs haqqında ətraflı məlumatlara sahib olmalısan. Qadınlarımız da, kişilərimiz də ehtiyatlı olsunlar. Şəxsə yaxşı bələd olmadan ailə qurmağa tələsməsinlər".

**Hüquqşünas hesab edir ki, qadınlarımız rəsmi nikaha daxil olmadıqlarından vətəndaş nikahında yaşadıqları insan barəsində heç bir məlumat əldə edə bilmirlər:**

"Əgər qadınlarımız evliliyə ciddi yanaşsalar, onlara birgə yaşayış təklif edən adamla rəsmi nikaha daxil olsalar, həmin şəxs barəsində dolğun məlumat əldə edərlər".

**Şəymən**

# "Nar" və Azərbaycan Könüllü Təşkilatları İttifaqı arasında memorandum imzalandı

**"Nar" və Azərbaycan Könüllü Təşkilatları İttifaqı (AKTİ) arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanıb. Memorandumu "Nar" tərəfindən şirkətin Baş İcraçı Direktoru Qunnar Panke, AKTİ tərəfindən isə ittifaqın sədri Yusif Vəliyev imzalayıb.**

Memorandum çərçivəsində "Nar" və AKTİ tərəfindən Azərbaycanda könüllülük mədəniyyətinin təşviqinə dəstək məqsədilə ortaq tədbir və layihələrin həyata keçirilməsi, eləcə də qarşılıqlı təcrübə mübadiləsinin aparılması nəzərdə tutulur.

"Ölkənin ən gənc mobil operatoru olaraq könüllülük işinin təşviqinə dəstəyimizi ifadə etməkdən məmnunluq duyuram. Əminəm ki, məhz könüllülərin tələblərinə uyğun şəkildə hazırladığımız xüsusi tarif onlar arasında daha rahat ünsiyyəti təmin etməklə təşkilatın ümumi işinə öz töhfəsini verəcək", - deyə "Nar"ın Baş İcraçı Direktoru Qunnar Panke bildirib.

İttifaqın sədri Yusif Vəliyev: "22 Könüllü təşkilatının üzv olduğu Azərbaycan Könüllü Təşkilatları İttifaqı olaraq "Nar" mobil operatoru ilə əməkdaşlığa başlamaqdan məmnunuq. İnanırıq ki, bu əməkdaşlıq Azərbaycan könüllüləri üçün yeni imkanlar yaradacaq, könüllülüyün inkişafına öz töhvəsini verəcək".



*Qeyd edək ki, Azərbaycan könüllüləri arasında effektiv koordinasiyanın təmin edilməsi, əlaqələrin asanlaşdırılması məqsədilə, "Nar"ın xüsusi yaratdığı tarif əsasında könüllülər arasında mobil zənglər pulsuz olacaq.*

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1188




# "Bizi qurtarın!"

### Ukraynalılar Ancelina Coliyə çağırış edib

**Keçən günlərdə Ukraynaya sürpriz ziyarət edən BMT-nin xoş niyyətli elçisi Ancelina Coli etiraz aksiyasında iştirak edib.**

Vətəndaşlar məşhur Hollivud ulduzuna pankartlarla çağırış ediblər. Açılan pankartlarda, "Ancelina Coli, kömək et", "Mariupolu qurtarın" ifadələrinə yer verilib.

Kievdə təşkil edilən aksiyada izdiham, əllərində daşıdıqları pankartlarla şüarlar səsləndirərək Rusiyaya etiraz ediblər.

**Turan**

# İlon Mask tviterin ödənişli olacağını açıqladı

### Bu barədə o, sosial media hesabında paylaşım edib



**Dünyanın ən zəngin adamı, "SpaceX" və "Tesla" şirkətlərinin qurucusu İlon Mask 44 milyard dollara aldığı tviter platformasını qismən ödənişli edəcəyini açıqlayıb.**

Bu barədə o, sosial media hesabında paylaşım edib. Onun sözlərinə görə, bu, kommersiya və dövlət hesablarına təsir edəcək, digər sadə istifadəçilər üçün isə platforma pulsuz olaraq qalacaq.

"Tviter ümumi istifadəçilər üçün həmişə pulsuz olacaq, lakin kommersiya, hökumət hesabları üçün kiçik ödənişlər tələb oluna bilər".

Həmçinin, Mask sosial şəbəkə istifadəçiləri üçün yeni imkanların olacağını bildirib. Belə ki,"Circle" funksiyası sayəsində nəşrlər yalnız məhdud istifadəçilər tərəfindən görünə biləcək.

Bundan əlavə, "Wall Street Journal" bir neçə ildən sonra tviterin əvvəlki kimi yenidən ictimai şirkətə çevrilə biləcəyi və sosial şəbəkə səhmlərinin birjalarda alına biləcəyi barədə məlumatlar dərc edib.



# Kəndə getdi, bir daha İstanbula dönmədi

### Sədəf Çoban fizioterapiyanı buğa sevgisinə dəyişdi, 4 kubok qazandı





**Türkiyənin Muğla bölgəsi, Marmaris əyalətində yaşayan Sədəf Çoban 2019-cu ildə İstanbul Bilgi Univeristetinin fizioterapiya və reabilitasiya fakültəsindən məzun olub. İmtahanlarını verdikdən sonra tətil üçün kəndə qayıdıb. O gələn, bir daha İstanbula geri qayıtmayıb.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Sədəf babalardanqalma buğa yetişdirmək sənətini davam etdirməyə başlayıb. Bundan əvvəl də yay tətillərini kənddə keçirən gənc qız "Çoban Efe" adı verilmiş buğanı bəsləməklə məşğul olurmuş. Sədəf 1 yaşlı buğanı əlləriylə yedirib-içirirmiş. Bölgədə buğa yarışları populyar olduğundan Sədəf buğanı yarışlara hazırlayıb. Buğaya yaxşı qulluq edib, buğa da üzünü qaraltmayıb. İndiyədək iştirak etdiyi yarışlarda qalib olub, 4 kubok qazanıb. Sədəf qış aylarında ahırda bağlı qalan buğanın ayaqları açılsın, cəld hərəkət edə bilsin deyə, 1 tonluq heyvanı hər gün yarım saat gəzdirir. Sədəfin ailəsi pansionat işlədir, eyni zamanda heyvandarlıqla da məşğuldur. Sədəf Çoban buğa sevgisinin ailədəngəlmə olduğunu deyib: "Köçəri olduğumuz üçün heyvandarlıq bizim üçün "olmazsa-olmaz"dır. Muğlada buğa yarışları bir ənənədir. Atam üçün də bu vazkeçilməz hobbi idi. Bütün yarışları izləməyə gedirdi, qayıtdıqda böyük həvəslə anladırdı. Mən də böyük həyəcan duyurdum. Sonra internetdən buğalar, necə bəslənməlidirlər, onlara necə qulluq edilməlidir, həm də buğa yarışları barədə məlumatlar öyrəndim. Dərs zamanı da "Çoban Efe" ağlımdan çıxmırdı. Nəhayət məzun oldum, kəndimizə döndüm və sevimli buğamla ilgilənməyə başladım. Ula və Datça bölgələrində yarışlara qatıldıq. Efem 4 dəfə qalib oldu, 10 min lirə mükafat qazandıq. Babalardanqalma bu ənənəni davam etdirə bildiyim üçün özümü xoşbəxt sayıram".

**Məlahət Rzayeva**

# Gündə 2 yumurta orqanizmi xərçəngdən qoruyur

### Türk həkim: "Yumurta görməni də yaxşılaşdırır"



**Gündə 2 ədəd təzə yumurta yemək orqanizmdə xərçəng yaranması riskini dəfələrlə azaldır.**

**Bakupost.az xəbər verir ki, bu barədə türk həkimləri məlumat verib. Bildirilib ki, əgər günə 2 yumurta yesəniz sinir sistemi möhkəmlənər, baş beynin imkanları yaxşılaşar, əzələ, sümük kütləsi bərkiyər, depressiyanı aradan qaldırar, orqanizmdə şiş hüceyrələrinin toplaşmasının qarşısını alar.**

**Yumurtada olan çox miqdarda A, B, D vitamini böyüyən uşaq bədəni üçün də vacibdir.**

**Yumurta görməni də yaxşılaşdırır.**

**Lakin ürək-damar xəstəlikləri olanlar həftədə 3 dəfə yumurta yeməlidir. Nə olursa olsun, həftə ərzində ən azı 5-6 yumurta yediyinizə diqqət yetirin.**

# Çin dünyanın ən hündür nöqtəsində meteostansiya quraşdırıb



**Çinli alimlər Everest zirvəsində 8,8 min metr hündürlüktə avtomatik meteoroloji stansiya quraşdırıb.**

**Trend-in məlumatına görə, bu barədə Çin mətbuatı bildirib.**

**Qeyd olunur ki, bu stansiya dünyada ən yüksəkdə quraşdırılmış meteostansiya olub.**

**Bundan əvvəlki rekord 8,4 min metr təşkil edirdi. Həmin hündürlükdə 2019-cu ildə ABŞ-Böyük Britaniya ekspedisiyası meteoroloji stansiya quraşdırmışdı.**

# 61 yaşlı aktyor nişanlandı



**Tanınmış türkiyəli aktyor Serhat Özcan evlənir.**

**Axşam.az xəbər verir ki, ötən gün 61 yaşlı aktyor 5 ildir sevgili olduğu Deniz İpeklə sadə bir mərasimlə nişanlanıb. "Bir neçə ildir ki, bu anı gözləyirdik. Çox xoşbəxtəm. 10 ildir tanışıq. Təqribən 5 ildir ki, sevgiliyik" deyə, Serhat bildirib.**

**Nişan mərasimində onun qardaşı, aktyor Reha Özcan da iştirak edib.**



# İçkinin içinə dərman atdılar

### İki ildir evdən bayıra çıxa bilmir...

**Gənclərin əyləncələri bəzən faciələr, dəhşətlərlə müşayiət olunur və gələcək həyatlarını qaraldır. BBC (Türkcə) bir neçə gəncin başına gələn bədbəxt olaylara işıq tutub. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, 21 yaşlı Mia Doshi Prichard 2020-ci ilin 17 yanvar tarixində tələbə dostlarıyla əylənməyə çıxıb.**

O gündən sonra 2 ildir ki, evdən bayıra çıxmağa qorxur, gənc qızda evdən çıxmaq qorxusu - küçə fobiyası yaranıb. Halbuki həmin gün əylənməyə gedərkən bir az içki içmək, rəqs etmək və sonra da evə dönməyi planlaşdırıb. "BBC Radio 1"də "Newsbeat" proqramına qonaq olan Mia "içki badəmi masanın üzərinə qoydum, dostlarımla rəqs etmək üçün arxaya döndüm. Niyə bunu etdim, deyə, hələ də özümün danlayıram, özümü bağışlaya bilmirəm. Nə oldusa, həmin dəqiqədə oldu. Badəmin içinə dərman atdıqlarına əminəm. Çünki bir neçə millət vəkilinin də tərkibində olduğu komissiya içkiyə dərman qatıldığı mülahizəsi üzərində dayanıb. Onların rəyi də bəzi dərmanların insanlarda uzunmüddətli təsir buraxdığını təsdiqləyir. Mən də dostlarımla birlikdə, onlar nə qədər içki qəbul etdisə, o qədər içmişdim. Amma nəzarətimi itirdim, harada olduğumu anlamaqda çətinlik çəkirdim. O gecədən sonra psixoloji gərginlik içindəyəm, nə vaxt evdən çıxmaq istəsəm qorxu hissi üstün gəlir və evdən çıxa bilmirəm", söyləyib. 30 yaşlı Saskia Boissevain də eyni vəziyyətlə üzləşib. 2021-ci ilin sentyabrında bir əyləncə mərkəzində içkisinə yad maddə qatılıb. Bundan sonra Saskia şüurunu itirib. Saskia ancaq bara getdiyini və içki qəbul etdiyini xatırlayır, başqa heç nə. Niamh Donnelli də bu dəhşəti yaşayıb. Dostlarıyla başqa bir dostunun evindəki görüşdən sonra nələr baş verdiyini xatırlamır. Onun evə dönməsinə küçədəki insanlar yardım edib: "Bu çox utancverici idi. Bundan sonra daha diqqətli olacağıma, tanımadığım insanların əlindən içki almayacağıma dair özümə söz verdim". 21 yaşlı Niamh da evdən çıxmağa qorxduğunu, xüsusilə əcnəbilərdən ehtiyatlandığını deyib. Odur ki, əyləncələrə çox həvəs göstərmək ziyanlıdır. İçkilərə qatılan maddələr insanların beyninə təsir edir, yaddaş itkisiylə yanaşı, güvənsizlik, qorxu kimi psixoloji problemlər yaradır.

**Məlahət**

# İlan 20 illik dostunu çaldı

### 60 yaşlı kişi tamaşaçıların gözü önündə can verdi



**ABŞ-ın Texas ştatında Eugene Dr.Leon Sr. 20 il ilan təlimçisi olaraq çalışıb. 60 yaşına çatan adam həyatının şousunu göstərməyə hazırlaşırmış.**

Bunun üçün də Cənubi Texasda keçirilən ənənəvi "Rattlesnake Roundup" festivalına qatılıb. 60 yaşlı təlimçi bu günə qədər etmədiyi, sərgiləmədiyi hərəkətləri tamaşaçılara göstərmək istəyib. Hər zaman olduğu kimi alqışlarla səhnəyə çıxıb. Bu gecə onun üçün unudulmaz olmalıydı. Oldu da. Amma həyatı bahasına. Təlimçi bir neçə ilanla şou göstərib. Tamaşaçıların alqışları onu daha da ürəkləndirib. Şou-proqramını bir az uzadıb. Lakin ilanlardan biri onu sancıb. Adam sancı içində səhnədə yerə yıxılıb. Tamaşaçılar əvvəlcə bunun da şou-proqramın bir hissəsi olduğunu zənn ediblər. Lakin kişinin qalxmadığını, yerdə qıvrıldığını görüncə, vəziyyətin təhülkəli hal aldığını anlayıblar. Kişi helikopterlə təcili xəstəxanaya çatdırılıb. Lakin həkimlər 8 saat çalışsa da, onun həyatını xilas edə bilməyib. 20 il ərzində çalışdığı peşə onun sonu olub.

**Məlahət**

# "TikTok" insan beyninin hüceyrələrini tükədir

### Bu gələcəkdə indiki nəsildə çox ciddi beyin problemləri yarada bilər



**Gənclərin hər gün asılıb qaldığı TikTok, Teleqram və İnstraqram sosial şəbəkələri, səs-küylü videolar, eləcə də çox sayda filmlər beynin tükənməsinə səbəb olacaq. Bu isə gələcəkdə indiki nəsildə çox ciddi beyin problemləri yarada bilər.**

Bakupost.az xəbər verir ki, rusiyalı həkim terapevt Oleq Abakumov gənclərdə TikTok səbəbindən beyin funksiyalarında problem yaşadıqlarını bildirib: "Gün ərzində 4 saatdan çox xəbərlər, kliplər, filmlərə baxmaq, sosial şəbəkələrdə olmaq beynin vəziyyətinə çox mənfi təsir edir. Qısa, lazımlı-lazımsız informasiyalarla dolu olan TikTok-da beyinə lazım olmayan informasiya çoxdur. Bu da onun tükənməsinə səbəb olur. Hüceyrələr bu qədər informasiya axını ilə yüklənməyə hesablanmayıb. Təsəvvür edin, 1 aylıq informasiyanı siz 3 sutkada beyinə ötürürsüz. Bu yorğunluq, tükənmə güclü idman məşqləri və yarışlarından sonra əzələlərin yorulmasına bərabərdir. İllər sonra beyni normal fəaliyyətə bərpa etmək çətin olacaq. Hər kəs TikTok-a baxma müddətini azaltmalıdır. Gündə 2 saatdan artıq sosial şəbəkələrdə olmamağa çalışın".